AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

1 FEVRAL 2019-cu il CÜMƏ № 25 (6352) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev Almaniya nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 31-də Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Energetika Nazirliyində dövlət katibi Tomas Baraysın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı belə geniş tərkibdə nümayəndə heyətinin ölkəmizə səfərini Azərbaycanla Almaniya arasında əməkdaşlığın və tərəfdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirərək ölkələrimizin və biznes dairələrinin əlaqələrimizin genişləndirilməsi üçün qarşılıqlı maraq göstərməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin Azərbaycana səfərini məmnunluqla xatırlayaraq, həmin səfər çərçivəsində biznes nümayəndələri arasında çox səmərəli görüşlərin keçirildiyini vurğuladı. Dövlətimizin başçısı Tomas Baraysın rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin əməkdaşlıq prosesinin davam etdirilməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi. Almaniya şirkətlərinin uzun illərdir Azərbaycanda uğurlu fəaliyyət göstərdiklərini vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasında tərəfdaşlıq və əməkdaşlıq əlaqələrinin bundan sonra da genişlənəcəyinə və möhkəmlənəcəyinə əmin olduğunu söylədi.

Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Energetika Nazirliyində dövlət katibi Tomas Barays qəbula görə nümayəndə heyətinin adından dövlətimizin başçısına minnətdarlığını bildirdi və Almaniyanın Federal Kansleri xanım Angela Merkelin salamlarını dövlətimizin başçısına çatdıraraq bu səfəri Federal Kanslerin Azərbaycana səfərinin davamı kimi dəyərləndirdi. Tomas Barays səfərdən öncə Angela Merkellə görüşdüyünü qeyd edərək bildirdi ki, xanım Kansler Azərbaycanla ikitərəfli iqtisadi əlaqələrin davam etdirilməsindən çox məmnundur. Ölkələrimizin ortaq tarixə malik olduğunu deyən Tomas Barays Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyinin qeyd edildiyini vurğulayaraq Prezident İlham Əliyevin bu mühüm tədbirə böyük töhfə verdiyini bildirdi. O, rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibinə müxtəlif sahələri təmsil edən nümayəndələrin daxil olduğunu qeyd edərək onların Azərbaycanın əsl dostları olduğunu dedi və bu səfərin əməkdaşlığımızın daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Görüşdə ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən energetika, neft-kimya, qeyri-neft sektoru, təhsil, peşə təhsili və digər sahələrdə inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı, alman şirkətlərinin Azərbaycandakı sənaye zonalarına maraq göstərdikləri qeyd olundu, onların Sumqayıt Kimya Sənaye Parkında iştirakına dair məsələlər müzakirə edildi.

Prezident İlham Əliyev Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Almaniyanın Federal Kanslerinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

## “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1443-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1443-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 31 yanvar 2019-cu il.**

## Bakı şəhərində professor Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, səhiyyə obyektlərinin tikintisinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Bakı şəhərində professor Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.19.12-ci yarımbəndində göstərilən vəsaitin 11 468 300 (on bir milyon dörd yüz altmış səkkiz min üç yüz) manatı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 31 yanvar 2019-cu il.**

## “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, N 7, maddə 572; 2011, N 12, maddə 1089; 2013, N 11, maddə 1318; 2014, N 1, maddə 9, N 7, maddə 777; 2015, N 2, maddələr 74, 96, N 3, maddə 253; 2016, N 2, I kitab, maddə 184, N 3, maddə 416; 2017, N 7, maddə 1290; 2018, N 10, maddə 1961) aşağıdakı məzmunda 14.2-1-ci maddə əlavə edilsin:

“14.2-1. Bu Qanunun 14.2-ci maddəsinə uyğun olaraq sığortalı tərəfindən sığortaçıya icbari sığorta müqaviləsinə uyğun olaraq ödənilən sığorta haqqının 5 faizi “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən yaradılan icbari tibbi sığorta fonduna ödənilir.”.

**Maddə 2.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 dekabr 2018-ci il.**

## Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019-2022-ci illər üçün nəqliyyat sahəsində Əməkdaşlıq Proqramının təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019-2022-ci illər üçün nəqliyyat sahəsində 2018-ci il noyabrın 22-də Aşqabad şəhərində imzalanmış Əməkdaşlıq Proqramı təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Proqramı qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əməkdaşlıq Proqramının qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkmənistan Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 yanvar 2019-cu il.**

## “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 9, maddə 788; 2013, N 7, maddə 776; 2014, N 7, maddə 778, N 12, maddə 1523; 2016, N 2, I kitab, maddə 185, N 3, maddə 414; 2017, N 2, maddə 149, N 7, maddə 1287) aşağıdakı dəyişikliklər edilsin:

1.1.30.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

“30.6. Təqvim haqları sığortaçının Büronun iştirakçı sığortaçılarının reyestrinə daxil edildiyi gündən başlayaraq, daxil olan sığorta haqlarının avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığorta müqavilələri üzrə 10 faizi, digər icbari sığorta müqavilələri üzrə isə 5 faizi həcmində ödənilir.”;

1.2.aşağıdakı məzmunda 30.7-ci maddə əlavə edilsin:

“30.7. Büronun hesabına köçürülmüş avtonəqliyyat vasitəsi sahiblərinin icbari sığorta müqavilələri üzrə təqvim haqlarının 50 faizi “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən yaradılan icbari tibbi sığorta fonduna ödənilir.”.

**Maddə 2.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 dekabr 2018-ci il.**

## “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1442-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1442-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 31 yanvar 2019-cu il.**

*Natiq ƏMİROV:*

# Davos görüşləri dünyanın Azərbaycana və Prezident İlham Əliyevin siyasətinə artan marağından xəbər verir

**Azərbaycan Respublikası Prezidentinin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirov bu günlərdə Davosda keçirilmiş Dünya İqtisadi Forumunun əhəmiyyəti, onun Azərbaycan üçün faydaları, Prezident İlham Əliyevin forum çərçivəsində keçirdiyi çoxsaylı görüşlər barədə Azərbaycan televiziyasının "Həftə" proqramına müsahibə verib. AZƏRTAC müsahibənin mətnini təqdim edir.**




**–Natiq müəllim, ötən həftənin ən mühüm hadisəsi Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına səfəri, səfər çərçivəsində keçirilən görüşlər oldu. Biz, ümumiyyətlə, bu görüşlərin əhəmiyyətinə ayrıca toxunacağıq. Amma istərdik ki, əvvəlcə budəfəki illik toplantının əhəmiyyəti, Azərbaycan üçün verdiyi və ya verəcəyi dividendlər barədə Sizin fikirlərinizi eşidək. Çünki bu Forum yalnız iqtisadi önəm kəsb etmir. Burada siyasi məsələlər, sosial, hətta ətraf mühit məsələləri müzakirə olunur. Ümumiyyətlə, illik toplantı Azərbaycan üçün nə ilə yadda qaldı və hansı dividendlərdən xəbər verir?**

–Doğrudan da, ötən həftənin ən mühüm hadisəsi Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunun Davos şəhərində keçirilən illik toplantısında iştirakı oldu. Bildiyiniz kimi, əsası Klaus Şvab tərəfindən 1971-ci ildə qoyulmuş Davos İqtisadi Forumu 1973-cü ilədək əsasən iqtisadi məsələlərin müzakirə olunduğu platforma kimi fəaliyyət göstərib. Bu il 49-cu dəfə keçirilən Dünya İqtisadi Forumuna 1973-cü ildən bəri siyasətçilərin də qoşulması ilə onun mahiyyəti və əhatə dairəsi əhəmiyyətli dərəcədə genişlənib. Hər il dünyanın 70-dən çox dövlət və hökumət başçısının, 150-dən çox dövlətin nümayəndəsinin, 1000-dən çox dünya əhəmiyyətli şirkətin, 3000-dən çox insanın iştirak etdiyi bu Forum dünyada qlobal miqyasda siyasi, iqtisadi, ətraf mühit, gender və dünyanın gələcək inkişafını müəyyənləşdirən bütün digər istiqamətlər üzrə sərbəst və inklüziv müzakirələri təşkil edən ən böyük platformadır. Əlbəttə, dövlətimizin başçısının bu Forumda iştirakı Azərbaycanın həm regional miqyasda, həm də dünya miqyasında artan rolunun və Prezident İlham Əliyevin şəxsinə yetirilən diqqətin bariz nümunəsidir. Prezidentimizin Forum çərçivəsində keçirdiyi görüşlər, orada səslənən fikirlər bunu deməyə əsas verir.

**–Forumla bağlı bir çox mühüm məqamlar diqqəti cəlb edir. 49-cu Davos Dünya İqtisadi Forumunda müzakirə olunan əsas məsələlərdən biri, bəlkə də birincisi dollar ifadəsində dünyanın ən böyük layihəsi sayılan "Bir kəmər, bir yol" təşəbbüsü ilə bağlı sessiya oldu. Dünyanın 70-ə yaxın ölkəsinin dövlət və hökumət başçılarından məhz Prezident İlham Əliyev həmin sessiyada iştirak ilə bağlı dəvət alır və ilk söz də Prezidentimizə verilir. Bu faktın özü nəyi deməyə əsas verir və hansı nüanslar bu reallığı ortaya qoyur?**

–Maraqlı sualdır. Bu sualın cavabına keçməzdən əvvəl bildirim ki, Davos İqtisadi Forumu iki əsas istiqamətlə fərqlənir. Birincisi, bu İqtisadi Forum müstəqil platformadır. O, dünya trendlərini - həm siyasətdə, həm iqtisadiyyatda, həm də digər sahələrdə dünya trendlərini müəyyənləşdirən inklüziv bir platforma olmaqla yanaşı, ikitərəfli görüşlərin keçirilməsi, ən yaxşı təcrübənin paylaşılması və gələcək inkişaf üçün hər kəsin baxışlarını əks etdirən müzakirələrin aparılması üçün çox münbit şərait yaradır.

Davos İqtisadi Forumunun hər il əsas mövzusu olur. Bu il Forumun əsas mövzusu "Qloballaşma 4.0: Dördüncü sənaye inqilabı dövründə qlobal arxitekturanın formalaşması" idi. Keçirilən çoxsaylı görüşlərdə əsas mövzu məhz qloballaşma - dördüncü sənaye inqilabı şəraitində ölkələrin öz gələcəklərini müəyyənləşdirməsi üçün həm iqtisadi, həm siyasi, həm mühit və digər məsələləri özündə ehtiva edən bir siyasətin formalaşmasını təşkil etmək oldu.

Bir araya təqdim edim: Prezidentin builki Davos səfəri onun ümumi say etibarilə 13-cü səfəri idi və bu 13 il ərzində Prezident İlham Əliyev 202 görüş keçirib (bu görüşlərin 55-i bilavasitə dövlət və hökumət başçıları ilə olub), 28 sessiyada iştirak edib, müxtəlif kütləvi informasiya vasitələrinə 9 dəfə müsahibə verib. Davosa builki səfəri çərçivəsində Azərbaycan Prezidenti 3-ü dövlət və hökumət başçıları ilə olmaqla, 19 görüş keçirib, Rusiyanın "Rossiya 1" və Çinin "China Global Television Network" telekanallarına müsahibələr verib, həmçinin "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" adlı sessiyada iştirak edib. Bu sessiya, demək olar, Davos İqtisadi Forumunun ən mühüm sessiyalarından biri idi. Çünki bu təşəbbüs dünyanın ümumi daxili məhsulunun 30 faizini, dünya əhalisinin 62 faizini təşkil edən bir coğrafiyanın Çin ilə siyasi-iqtisadi və maliyyə əlaqələrinin genişləndirilməsini nəzərdə tutur. Bildiyiniz kimi, Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan "Bir kəmər, bir yol" layihəsinə ən çox töhfə verən dövlətlərdən biridir. Qeyd edim ki, "Bir kəmər, bir yol" layihəsində "bir kəmər" dedikdə, Çindən dünyanın müxtəlif istiqamətlərinə gedən quru yolu nəzərdə tutulur və Azərbaycan da həmin yolun üzərində yerləşir. "Bir yol" isə Çini müxtəlif dövlətlərlə birləşdirən dəniz yollarını nəzərdə tutur. Azərbaycan Prezidentinin bu sessiyaya dəvət olunması və ilk sözün ona verilməsi təsadüfi deyildi. Çünki Azərbaycan azsaylı ölkələrdəndir ki, öz maliyyə gücü ilə infrastruktura əhəmiyyətli investisiyalar yatırmaqla, qitələrin birləşdirilməsində çox mühüm rol oynayır.

**–Natiq müəllim, suallarımız kifayət qədər çoxdur, çünki Davosda çox önəmli görüşlər keçirildi, mühüm məsələlər müzakirə edildi. Ən əsası Azərbaycan növbəti dəfə qlobal platformada konkret layihələrlə təqdim olundu. Siz çox önəmli məqamlara toxundunuz ki, məhz bu layihələrin mövcudluğu supergüclərdə və önəmli təşkilatlarda bir dövlət kimi Azərbaycana maraq yaradır. Elə dövlətimizin başçısının keçirdiyi görüşlərdən biri də Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə oldu və həmin görüş əsnasında Dördüncü Sənaye İnqilabı Mərkəzi ilə Azərbaycan arasında ilk dəfə olaraq əməkdaşlığın təməli qoyuldu. Ümumiyyətlə, Dördüncü Sənaye İnqilabı nədir? İstərdik bunun mahiyyətinə varaq. Dövlətimizin başçısının iştirakı ilə keçirilən bu görüşdə səslənən fikirlər, eləcə də bu sənaye inqilabının qarşıya qoyduğu əsas hədəflər nədən ibarətdir? Bu görüş Azərbaycana nə kimi dividendlər vəd edir?**

–Bəli, xüsusilə Şərq-Qərb nəqliyyat dəhlizi üzərində yerləşən Ələt qəsəbəsində Xəzər dənizinin ən böyük limanının tikintisi, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası, eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizi üzərində infrastrukturun yaradılması və bütün bu infrastruktur layihələrinin Azərbaycan Prezidentinin bilavasitə təşəbbüsü ilə, eyni zamanda, Azərbaycanın maliyyə vəsaitləri hesabına formalaşması, təbii ki, dünyanın diqqətini çəkən amillərdən idi. İlk baxışda kiçik görünən bu layihə Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində dünyanın nəhəng ölkələrini və maliyyə institutlarını bu layihənin ətrafında birləşdirməyə imkan verdi. Yəni, əslində, Azərbaycan kiçik bir ölkə olsa da, dövlətimizin başçısının səyləri bunu bizim üçün bir fürsətə, imkana çevirdi ki, nəticədə, böyük ölkələr bu nəqliyyat habının ətrafında birləşməklə "Bir kəmər, bir yol" layihəsinə, eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafına öz töhfələrini verdilər.

**–Ümumiyyətlə, müasir texnologiyalardan ən çox inkişaf etmiş ölkələr yararlanır. Ən yeni nanotexnologiyaları iqtisadiyyata iqtisadi baxımdan özünü doğrultmuş və büdcəsi buna imkan verən ölkələr cəlb edirlər. Hər ölkənin qarşıya qoyulan hədəfləri var. Siz də qeyd etdiniz - beşinci sənaye inqilabı, altıncı sənaye inqilabı - hər birinin öz hədəfləri var. Qarşıya qoyulan konkret tələblər var və hansı ölkə bu tələblərə cavab vermirsə, o zaman əlbəttə ki, həmin ölkə ilə danışıqlar aparılmır. Deməli, bu, artıq beynəlxalq miqyasda Azərbaycan iqtisadiyyatının inkişafına verilən dəstək və eləcə də bu inkişafın etiraf olunmasıdır. "Doing Business" hesabatında da Azərbaycan 32 pillə irəliləyərək 57-ci yerdən 25-ci yerə yüksəldi. Elə bu faktın özü də ölkəmizə olan marağı ifadə edir.**

–Tamamilə doğrudur. Azərbaycan Prezidenti Davos İqtisadi Forumundakı çıxışlarında da bunu qeyd edib. Mən bir faktı da deyim ki, Dördüncü Sənaye İnqilabı Mərkəzi ilə əməkdaşlıq etmək istəyən ölkələrin coğrafiyası həddindən artıq genişdir və hər bir ölkə San-Fransisko şəhərində öz təqdimatını, bu məsələlərə öz baxışını və dövlətin bu sahədə apardığı siyasəti təqdim edirdi. Bizim ölkəmizin də orada təqdimatı keçirildi. Bütövlükdə, dövlətimizin başçısı tərəfindən həyata keçirilən islahatlar həmin təqdimatın iştirakçıları tərəfindən çox yüksək dəyərləndirildi. Biz cənab İlham Əliyevin prezident olduğu son 15 ilə diqqət yetirsək, istənilən dövrdən 3 il, 5 il əvvəllə müqayisə aparsaq, hər 3-5 ildə çox əhəmiyyətli irəliləyişlərin baş verdiyinin şahidi olarıq. Prezident İlham Əliyevin həyata keçirdiyi davamlı islahatlar, innovativ və digər həllər istiqamətində atdığı addımlar Azərbaycanın inkişafını, sözsüz ki, həm dayanıqlı, həm də davamlı edir. Bu da qeyd etdiyiniz kimi, təbii ki, "Doing Business" hesabatında da öz əksini tapır. Bu məsələ dövlətimizin başçısının ikitərəfli görüşlərində xüsusilə vurğulanırdı. "Doing Business" hesabatında Azərbaycanın birdən-birə 32 pillə irəliləyərək 25-ci yerə çıxması iştirakçıların, demək olar, hamısı tərəfindən çox yüksək dəyərləndirilirdi. Dünya Bankı Qrupunun baş icraçı direktoru xanım Kristalina Georgiyeva cənab Prezidentlə görüşdə belə bir sıçrayışın "Doing Business" hesabatı tarixində bir ilk olduğunu söylədi. Burada bir haşiyəni qeyd edim. Azərbaycanın dövlət və hökumət qurumları "Doing Business" hesabatı ilə daim məşğul olurlar. Keçən il Prezident İlham Əliyev şəxsən özü "Doing Business" hesabatının metodologiyasına qədər maraqlandı, toplantılar keçirdi. Bildiyiniz kimi, Baş nazirin birinci müavini Yaqub Eyyubovun rəhbərliyi ilə xüsusi komissiya yaradıldı və müxtəlif qurumların 116 nümayəndəsi sistemli olaraq dövlətimizin başçısının tövsiyələri əsasında bu hesabat üzrə Azərbaycanın atmalı olduğu addımlar, eyni zamanda, həyata keçirməli olduğu islahatlar üzərində işləməyə başladı. Cənab Prezident o zaman qeyd edirdi ki, əgər biz hər hansı bir istiqamətdə irəli getmək istəyiriksə, bizim aydın baxışımız olmalıdır, proqramımız olmalıdır və onu həyata keçirəcək komandamız olmalıdır. Məhz dövlət başçısının bilavasitə iştirakı ilə, prosesi artıq özünün göstərdiyi istiqamətdə davam etdirməsi ilə, səmimi desəm, Azərbaycan bizim də gözləmədiyimiz bir səviyyədə irəliyə doğru mühüm addımlar atdı. Bu, görüşlərdə iştirakçıların hamısı tərəfindən qeyd olunurdu. Bu nəticələr Azərbaycana diqqət və marağı artırmaqda, eyni zamanda, investisiyalar gətirməkdə davam edir.

Ümumiyyətlə, qeyd edim ki, builki Davos Forumu daha çox texnologiyaların - dördüncü sənaye inqilabına aid olan texnologiyaların önə çıxması ilə əvvəlki illərdən fərqlənirdi. Siz tamamilə doğru dediniz ki, Prezident İlham Əliyevin Borge Brende ilə görüşündə Azərbaycanla Dünya İqtisadi Forumu arasında əməkdaşlıq sazişinin mübadiləsi baş verib. Azərbaycan Dördüncü Sənaye İnqilabı Mərkəzi ilə əməkdaşlıq sazişi imzalamaqla iqamətgahı San-Fransisko şəhərində yerləşən bu qurumun rəsmi tərəfdaşına çevrilib. Məlumat üçün bildirim ki, bu günə qədər Dördüncü Sənaye İnqilabının rəsmi tərəfdaşları qismində Yaponiya, Amerika Birləşmiş Ştatları, Çin və Hindistan kimi nəhəng ölkələr çıxış edirdilər. Odur ki, sual yarana bilər: bu nəhəng ölkələrdən sonra əhalisinin sayına, ərazisinə görə nisbətən kiçik olan ölkələrlə belə bir müqavilənin bağlanması və məhz Azərbaycanın seçilməsi nə ilə əlaqədardır? Qeyd etməliyəm ki, ilk növbədə, Azərbaycan ümumi daxili məhsulda sənayenin payına görə dünyada lider ölkələrdəndir. Yəni, dünyada çox az sayda ölkələr var ki, ümumi daxili məhsulda sənayenin payı Azərbaycandakı qədər yüksək olsun. Eyni zamanda, biz "Qlobal Rəqabətlilik Hesabatı"nda texnologiyaların insanlara əlçatanlığına, vətəndaşların rəqəmsal həllərdə iştirakına görə dünyada 15-ci yerdəyik. Azərbaycanın dövlət başçısının son illərdə xüsusilə informasiya texnologiyaları, innovativ həllər, rəqəmsal iqtisadiyyat sahəsində qərarları, fərmanları və real iqtisadiyyatda atılan addımlar, son illərdə aparılan islahatlar, təbii ki, Davos Dünya İqtisadi Forumunun, o cümlədən Dördüncü Sənaye İnqilabı Mərkəzinin də diqqətindən qaçmayıb.

Bilirsiniz ki, Azərbaycanda "Azexport.az", Rəqəmsal Ticarət Qovşağı və digər bu kimi həllər mövcuddur və onlar Dördüncü Sənaye İnqilabı Mərkəzi ilə çox sıx əməkdaşlıq edirlər. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təşkilatçılığı ilə nümayəndə heyəti San-Fransisko şəhərində Azərbaycanın rəqəmsal imkanları, Dördüncü Sənaye İnqilabına verə biləcəyi töhfələr və Azərbaycanın Dördüncü Sənaye İnqilabı Mərkəzi ilə əməkdaşlıq imkanlarına dair təqdimat keçirərkən bütün bu məsələlər qiymətləndirilib, tərəfdaş kimi məhz Azərbaycan Respublikası seçilib. Dördüncü Sənaye İnqilabı artıq rəqəmsal iqtisadiyyata doğru atılan ən böyük addımdır. Davosda artıq Beşinci Sənaye İnqilabının ilk sədaları, ilkin istiqamətləri səslənir, bununla bağlı çox mühüm təqdimatlar keçirilirdi. Davosun builki formatının daha çox texnoloji istiqamətə yönəlməsi dövlətimizin başçısının görüşlərində və cənab Prezidentin şəxsinə olan maraqda da özünü bilavasitə əks etdirirdi.

**–Azərbaycan Prezidenti çox önəmli şirkətlərin rəhbərləri, icraçı direktorları ilə görüşdü. Bu görüşlərə, məsələn, "Visa", "CİSCO" rəhbərləri ilə görüşlər aiddir. Həmin şirkətlərin qlobal miqyasda nüfuzu barədə nə demək olar? Bu şirkətlərlə əməkdaşlıq hansı perspektivlər vəd edir? Xüsusən nəzərə almaq lazımdır ki, həmin şirkətlərin rəhbərləri məhz özləri Azərbaycan Prezidenti ilə görüşə can atırdılar, bu görüşlər onların təşəbbüsü ilə keçirilirdi.**

–Qeyd edim ki, təkcə həmin şirkət rəhbərləri ilə görüşlər deyil, ümumiyyətlə Davos şəhərində cənab Prezidentin keçirdiyi bütün görüşlər qarşı tərəflərin təşəbbüsü və müraciəti əsasında təşkil edilirdi. Davosda dövlətimizin başçısını müşayiət edən bir heyət üzvü kimi bizim qarşımızda duran ən böyük çətinlik cənab Prezidentin vaxt qrafikinin məhdud olması səbəbindən dünyada çox böyük hörmət, nüfuz sahibi olan şirkətlərə, siyasətçilərə "yox" demək idi. Yəni, həqiqətən onlara "cənab Prezidentin qrafiki məhduddur, sizinlə görüşmək imkanı yoxdur" demək bizim üçün olduqca çətin idi. Bəlkə də Azərbaycan nümayəndə heyəti yeganə nümayəndə heyəti idi ki, səhər saat 7-də bizim Prezidentin birinci görüşü olurdu. İştirakçılar səhər saat 7-də çatdıra bilmədiklərini deyəndə biz düşünürdük ki, cənab Prezident onlara iş qrafikinin gərginliyi ilə əlaqədar bir şərh, açıqlama verir. Amma o deyirdi ki, "bizim Vətənimizdə saat 10-dur və bizim üçün normal iş vaxtıdır. Kim bizimlə görüşmək istəyirsə, bu vaxt gəlməlidir". Həqiqətən də Prezident İlham Əliyevlə görüşmək, onunla müzakirə aparmaq istəyən həm rəsmi dövlət nümayəndələrinin, həm də qlobal şirkət rəhbərlərinin sayı həddindən artıq çox idi və dövlətimizin başçısı vaxt məhdudiyyəti səbəbindən onların bəziləri ilə görüşə bilmədi.

Ümumilikdə, Davos görüşləri bu il əsasən iki istiqaməti əhatə edirdi. Birincisi, bilirsiniz ki, bizim ənənəvi neft sənayemiz, bu sahədə ənənəvi tərəfdaşlarımız var. Cənab Prezident də onların müraciəti əsasında, həm "BP" şirkətinin rəhbəri Robert Dadli, həm "LUKoil" şirkətinin prezidenti Vahid Ələkbərov, həm "Total" şirkətinin rəhbəri, həm də keçmiş "Statoil" şirkətinin rəhbəri ilə - indi həmin şirkət "Equinor" adlanır - görüşlər keçirdi. Bu görüşlərdə Azərbaycanın neft strategiyası, Azərbaycanın yaxın gələcəkdə bu sahədə atacağı addımlar, bütövlükdə dünyada neft sənayesinin mövcud vəziyyəti və buradan irəli gələn məsələlər bizim ənənəvi tərəfdaşlarımızla müzakirə olunurdu. Dövlətimizin başçısının görüşləri sırasında qeyri-neft sektorunu təmsil edən şirkətlərin, xüsusən texnoloji şirkətlərin nümayəndələri ilə görüşləri xüsusi qeyd etmək lazımdır. İkinci istiqamət Prezident İlham Əliyevin keçirdiyi siyasi əhəmiyyətli görüşləri idi ki, bu sırada Borge Brende, eyni zamanda, İsveçrə Konfederasiyasının Prezidenti Ueli Maurer, Gürcüstanın Baş naziri Baxtadze və Ermənistanın Baş naziri ilə olan görüşləri qeyd edə bilərik.

Borge Brende ilə görüşü xüsusi vurğulamaq istərdim. Bu görüş əsas etibarilə regional iqtisadi siyasət və regionun ətrafında olan yaxın qonşuların iqtisadi münasibətləri, habelə siyasi münasibətləri ilə bağlı cənab Prezidentin baxışlarını və mövqeyini öyrənmək, eyni zamanda, tövsiyələrini eşitmək məqsədi daşıyırdı. Borge açıq-aydın vurğulayırdı ki, Azərbaycan son 10-15 ildə apardığı siyasət və islahatlar hesabına bölgənin tanınmış söz sahibinə, nüfuzlu dövlətə çevrilib. Artıq bu coğrafiyada Azərbaycanla müzakirə olunmadan, Azərbaycanın fikri, mövqeyi nəzərə alınmadan, demək olar ki, heç bir böyük iqtisadi layihə həyata keçirmək mümkün deyil. Borge Brende Orta Asiyanın və Çinin Avropa ilə birləşdirilməsini təmin edən nəhəng infrastruktur layihələrinin - buraya Ələt Dəniz Limanı, eləcə də Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP qaz boru kəmərlərini özündə birləşdirən "Cənub Qaz Dəhlizi" layihəsi, Bakı-Tbilisi-Qars dəmir yolu və digər layihələr daxildir - mövcud durumu ilə maraqlanır və heyrətini açıq-aydın bildirirdi ki, bu layihələrin hamısı Prezident İlham Əliyevin təşəbbüsü və möhkəm iradəsi sayəsində mümkün olub.

Bu arada onu vurğulayım ki, Davos Dünya İqtisadi Forumunda rəsmi tədbirlərdən əlavə, kuluarlarda böyük şirkət rəhbərlərinin, siyasətçilərin adi söhbətlərində bir narahatlıq ifadə olunurdu. Onlar bildirirdilər ki, dünya Dördüncü Sənaye İnqilabı ərəfəsindədir və bu sənaye inqilabı artıq qloballaşma formasında bütün dövlətləri, şirkətləri, cəmiyyətləri əhatə etməkdədir. Eyni zamanda, onları dünyada baş verən siyasi proseslər narahat edirdi. Yəni, dünyanın hansı istiqamətə hərəkət etməsi, bir tərəfdən, dediyimiz kimi, dördüncü sənaye inqilabı, beşinci sənaye inqilabı, investisiya axını, iqtisadiyyatın və dövlətlərin, xalqların tərəqqisi, digər tərəfdən, dünyada yeni bir trend olan ticarət müharibələrinin, bir çox dünya ölkələrində sağ təmayüllü, radikal qüvvələrin meydana gəlməsi, bir çox regionların münaqişə girdabına yuvarlanması kimi hallar ilə bağlı həmin şirkət rəhbərlərində narahatlıq var idi. Maraqlı haldır ki, onlar öz təhlillərində dünyada bu kimi konfliktlərdən uzaq olan çox az dövlət tapa bilirdilər. Bu dövlətlər içərisində Azərbaycan xüsusilə seçilirdi. Demək olar ki, elə bir görüş yox idi ki, orada dövlətimizin başçısına "Siz bunu necə edirsiniz?" sualını verməsinlər. Bu sualı istər siyasətçilər, istərsə də şirkət rəhbərləri verirdilər: Yəni, bu, necə mümkün olur ki, çalxalanan dünyada, xüsusilə Sizin yerləşdiyiniz coğrafiyada - çox böyük siyasi gərginliyin, müharibə və çəkişmələrin hökm sürdüyü regionda, hətta özünüzə qarşı davamlı təhdidlərin olduğu, torpağınızın 20 faizinin işğal edildiyi bir şəraitdə Siz Azərbaycanı bir təhlükəsizlik, sabitlik adasına çevirə bilmisiniz? Dünyada bu problemlərlə yaşayan nəhəng ölkələrlə və qonşularınızla mehriban, qarşılıqlı əməkdaşlıq mühitini necə formalaşdıra bilmisiniz? Ən önəmli daha bir faktı qeyd edirdilər ki, bütün bu münasibətlər çərçivəsində Azərbaycan dövlətinin, Azərbaycan xalqının maraqları ən yüksək səviyyədə qorunur. Həm kuluarlarda, həm də rəsmi görüşlərdə Prezident İlham Əliyevə bu sual mütləq verilirdi.

**–Dünyanın ən böyük maliyyə qurumlarını nə maraqlandırır? Sabitlik. İnvestisiya hansı ölkəyə qoyulur? Sabitlik olan ölkəyə.**

–Sabitlik mütləq şərtdir ki, investisiyalar gəlsin. Çünki investisiya ürkək olur. İnvestisiya özünə rahat, sabit, gələcəyi proqnozlaşdırıla bilən yerlər tapır. Bu görüşlərdə Prezidentimizə verilən suallardan biri də bu olurdu.

Borge ilə görüşdən sonra Prezident İlham Əliyev qeyri-neft sektoruna aid şirkətlərin nümayəndələri ilə görüşməyə başladı. İlk görüşlərdən biri Dünya Bankı Qrupunun icraçı direktoru Kristalina Georgiyeva ilə oldu. Xanım Georgiyeva Azərbaycan haqqında çox xoş sözlər dedi. Azərbaycan Prezidentinin həyata keçirdiyi islahatların onların gözləntilərini aşdığını və Azərbaycanın əldə etdiyi nailiyyətlərin doğrudan da dünya iqtisadi məkanı üçün bir nümunə olduğunu vurğuladı. O, yenidən "Doing Business" hesabatını qeyd edərək, Azərbaycanın uğurlarının bugünkü keşməkeşli dünyada bilavasitə dövlət başçısının iradəsi hesabına baş verdiyini və bunun onlarda xüsusi sevinc yaratdığını bildirdi. Eyni zamanda, xanım Georgiyeva xatırlatdı ki, 20 il bundan əvvəl Azərbaycan Dünya Bankından yardım alan ölkələrdən biri idi. Həqiqətən də 1990-cı illərin sonlarında Dünya Bankı Azərbaycana müəyyən layihələrin həyata keçirilməsində kömək edirdi. O dövrdə dünyada bir çox ölkə Dünya Bankından yardım alırdı. Xanım Georgiyeva bizim bilmədiyimiz maraqlı bir faktı əlavə etdi ki, həmin çoxsaylı dövlətlərdən yalnız bir neçəsi öz iqtisadi müstəqilliyini təmin etmək üçün iqtisadiyyatlarını artıra bildi və bu gün Dünya Bankının yardımına ehtiyac olmadan ayaq üstündə duran dövlətlərə çevrildilər. O, bu ölkələrin sırasında Çini, Hindistanı, İndoneziyanı və Azərbaycanı xüsusilə qeyd etdi. Təklif etdi ki, Azərbaycan da Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyasının xətti ilə artıq dünyaya yardım edən bir dövlətə çevrilə bilər. Bu, dünyada nadir iqtisadi transformasiyalardandır ki, 20 il ərzində bir dövlət yardım alan dövlətdən donor dövlətə çevrilsin, özü investisiya yatırsın, Dünya Bankının xətti ilə həmin layihələrdə iştirak etsin. Kristalina Georgiyeva bildirdi ki, bu, Azərbaycanın əldə etdiyi uğurların dünya miqyasında tanınması, dünya tərəfindən qəbul edilməsi deməkdir. Eyni zamanda, artıq Azərbaycanın Dünya Bankı Qrupuna daxil olan həm Beynəlxalq Maliyyə Korporasiyasında, həm də Beynəlxalq Yenidənqurma və İnkişaf Bankında öz səhmlərini hətta artırmasının vaxtı çatdığını, bununla Azərbaycanın Dünya Bankının investisiyalarında, qurumun həyata keçirdiyi siyasətdə rolunun artırılması zamanının gəldiyini bildirdi və Prezident İlham Əliyevdən bu proseslərə diqqət yetirməsini xahiş etdi.

Daha sonra dövlətimizin başçısı "CİSCO" şirkətinin vitse-prezidenti və satış rəhbəri xanım Gerri Elliott ilə görüşdü. "CİSCO" illik dövriyyəsi təqribən 50 milyard dollara yaxın olan nəhəng bir şirkətdir və 74 mindən çox əməkdaşı öz sıralarında birləşdirir. Bu şirkət texnoloji və rəqəmsal həllərin həm iqtisadiyyatın ayrı-ayrı sahələrində, həm də sosial həyatda tətbiqini təmin edən şirkətlərdən biridir. Çox səmimi və maraqlı atmosferdə keçən görüşdə xanım Elliott belə bir sual verdi. Dedi ki, mən bu sualı özümə ilk dəfə verirdim ki, uğur qazanılması üçün nələr lazımdır. Mən özlüyümdə belə qənaətə gəlmişəm ki, uğurun qazanılması üçün üç əsas prinsip lazımdır. Birincisi, bu uğuru təmin edəcək lider, ikincisi, bu liderin həm orta, həm də uzunmüddətli aydın və gələcəyə yönəlmiş baxışının, fəaliyyət proqramının, strategiyasının olması, üçüncüsü, həmin baxışları, strategiyanı həyata keçirəcək bir komandanı formalaşdırmaq bacarığının olmasıdır.

**(davamı 3-cü səhifədə)**

# Müdafiə Nazirliyinin rəhbərliyi ön xətdə yerləşən bölmələrdə olub

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Müdafiə Nazirliyinin rəhbər heyəti cəbhəboyu zonada yerləşən hərbi hissələrdə və döyüş mövqelərində olaraq şəxsi heyətlə görüşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən general-polkovnik Zakir Həsənov müdafiənin dayanıqlılığını, hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığını yoxlayıb, komanda-müşahidə məntəqəsindən düşmən mövqelərini izləyib.

Nazir ön xətt bölmələrində xidmət edən şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərlə maraqlanıb və bu tədbirlərin daha keyfiyyətlə yerinə yetirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.



Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirən müdafiə naziri xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunu mükafatlandırıb.

Sonda Müdafiə Nazirliyinin rəhbərliyi çay süfrəsi arxasında hərbi qulluqçularla söhbət edib.

AZƏRTAC

# Enerji sahəsində Azərbaycan-Almaniya əməkdaşlığı müzakirə edilib

**Enerji sahəsində Azərbaycan-Almaniya əməkdaşlığına dair müzakirələr aparılıb.**

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirlikdə Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Energetika Nazirliyində dövlət katibi Tomas Baraysın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Energetika naziri Pərviz Şahbazov iki ölkə arasında münasibətlərin gələcəkdə daha da inkişafının vacibliyini və bu istiqamətdə Alman-Azərbaycan Xarici Ticarət Palatası, Azərbaycan-Almaniya Ticarət və İnvestisiyalar üzrə Yüksək Səviyyəli İşçi Qrupu, eləcə də Almaniyanın Federal İqtisadiyyat və Energetika Nazirliyinin Menecer Təlimi Proqramının mühüm rolunu qeyd edib.

Nazir deyib ki, enerji sahəsində Almaniya ilə çoxşaxəli əməkdaşlıq mövcuddur və bu əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar var. Bildirilib ki, Azərbaycanın Almaniyaya ixracında əsas payı neft və neft məhsulları təşkil edir. Belə ki, ötən il SOCAR tərəfindən Almaniya istiqamətində 2 milyon 283 min ton xam neft təchiz edilib. Bundan başqa, "Uniper" şirkəti ilə neftqaz istehsalında enerji səmərəliliyinin artırılması, Bakı və Abşeron yarımadasında qaz təchizatı şəbəkəsinin müasirləşdirilməsi, eləcə də elektroenergetika sektorunda "Siemens" və digər alman şirkətləri ilə həyata keçirilən layihələrdən danışılıb.



Ölkədə elektrik stansiyalarının diaqnostika və auditinin aparılması, generasiya güclərinin və elektrik enerjisinin ötürücü sisteminin optimallaşdırılması və bərpası proqramlarının hazırlanmasında Almaniyanın "VPC", "Enerco" kimi şirkətləri ilə əməkdaşlıq yüksək qiymətləndirilib.

Hazırda bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verilərək, "SimensGamesa" şirkətinin nümunəsində bu sahədə Almaniya ilə əməkdaşlığa maraq ifadə edilib.

Görüşdə təmsil olunan "Uniper", "EWE", "Vito" və digər alman şirkətləri isə enerji sahəsində əməkdaşlığın perspektivləri barədə fikirlərini bölüşüblər.

AZƏRTAC

# Sumqayıt Kimya Sənaye Parkındakı Peşə Tədris Mərkəzində Almaniya təcrübəsindən istifadə olunacaq

**Sumqayıt Kimya Sənaye Parkındakı Peşə Tədris Mərkəzində Almaniya təcrübəsindən istifadə ediləcək.**

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev yanvarın 31-də Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Energetika Nazirliyində dövlət katibi Tomas Baraysın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə deyib.

Ş.Mustafayev ölkələrimiz arasında əməkdaşlığın uğurla davam etdiyini, yüksək səviyyəli səfərlərin, aparılan danışıqların əlaqələrin genişləndirilməsində mühüm əhəmiyyətini vurğulayıb.

Nazir Azərbaycanın Avropa İttifaqı ölkələri, xüsusilə Almaniya ilə əməkdaşlığın inkişafına böyük önəm verdiyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan və Almaniya arasında indiyədək 70-dən çox sənəd imzalanıb. Qeyd edib ki, Azərbaycanda 154 Almaniya şirkəti qeydiyyatdan keçib, alman şirkətləri dövlət əsaslı layihələrdə podratçı qismində də iştirak edirlər.



Ş.Mustafayev iqtisadi-ticarət əlaqələrinin genişləndiyini, 2018-ci ildə ticarət dövriyyəsinin əvvəlki illə müqayisədə 61 faizdən çox artdığını qeyd edib: "Azərbaycan və Almaniya investisiya sahəsində də əməkdaşlıq edir. Almaniya tərəfindən Azərbaycan iqtisadiyyatına 572 milyon dollar, Azərbaycan tərəfindən isə bu ölkəyə 124 milyon dollar investisiya yatırılıb.

Ölkəmizdə əlverişli biznes və investisiya mühiti yaradıldığını diqqətə çatdıran nazir vurğulayıb ki, Dünya Bankının açıqladığı "Doing Business 2019" hesabatında Azərbaycan öz mövqeyini 32 pillə yaxşılaşdıraraq 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb və 10 ən islahatçı ölkə sırasına daxil edilib.

Ş.Mustafayev Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə Almaniyanın Federal İqtisadiyyat və Energetika Nazirliyi arasında anlaşma memorandumuna uyğun olaraq "Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı" çərçivəsində indiyədək 379 sahibkar və menecerin Almaniyada ixtisasartırma kursu keçdiyini, bu ilin martında daha 16 sahibkar və menecerin Almaniyada təcrübə keçəcəklərini bildirib. Qeyd edib ki, Sumqayıt Kimya Sənaye Parkında yaradılan Peşə Tədris Mərkəzində Almaniya təcrübəsindən istifadə olunacaq.

İqtisadiyyat naziri ölkələrimiz arasında energetika, sənaye, kənd təsərrüfatı, İKT, nəqliyyat, kiçik və orta sahibkarlıq, tullantıların emalı, investisiya, ticarət, turizm, təhsil, əczaçılıq və sair sahələrdə əməkdaşlığın inkişafı imkanlarını vurğulayıb.

Almaniyanın Federal İqtisadiyyat və Energetika Nazirliyinin dövlət katibi Tomas Barays Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını vurğulayıb, ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsində Alman-Azərbaycan Xarici Ticarət Palatasının, Azərbaycan-Almaniya Ticarət və İnvestisiyalar üzrə Yüksək Səviyyəli İşçi Qruplarının rolunu qeyd edib.

Görüşdə iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətləri, həmçinin Azərbaycanın sənaye parklarında, dövlət proqramları çərçivəsində həyata keçirilən layihələrdə alman şirkətlərinin iştirakı, kiçik və orta biznesin inkişafı, Sumqayıt Kimya Sənaye Parkında Peşə Tədris Mərkəzində işləyəcək mütəxəssislərin Almaniyada ixtisasartırma kurslarına cəlb edilməsi və sair sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

AZƏRTAC

# Əqli Mülkiyyət Agentliyi Azərbaycan və Fransa universitetlərinin birgə magistr proqramına dəstək verir



**Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov Fransanın Lumiere Lion 2 Universitetinin hüquq fakültəsinin dekanı, professor Giyoni Protyer ilə görüşüb.**

Agentlikdən AZƏRTAC-a bildirilib ki, K.İmanov Prezident İlham Əliyevin səyləri nəticəsində Azərbaycanda sosial-iqtisadi islahatların uğurla reallaşdırılması, eləcə də iqtisadiyyatın diversifikasiyasının və innovativ inkişaf yolunun tərkib hissəsi kimi əqli mülkiyyət sahəsinin inkişafına yönəlmiş institusional islahatlar barədə qonağa məlumat verib. O, Agentliyin ölkəmizdə əqli mülkiyyət hüquqları sahəsində vahid tənzimləməni və nəzarəti həyata keçirən publik hüquqi şəxs olduğunu, əqli mülkiyyət hüquqları sahəsində vahid dövlət siyasətini formalaşdırdığını və bu siyasətin həyata keçirilməsini təmin etdiyini bildirib. Azərbaycanın müəllif hüquq sisteminin Avropa doktrinasına, xüsusilə də Fransa sisteminə əsaslandığını qeyd edən Agentliyin sədri ümumilikdə əqli mülkiyyət sahəsində ölkəmizdə geniş islahatların aparılmasını nəzərə çatdırıb.

Bakı Dövlət Universiteti və Lion Universiteti arasında əqli mülkiyyət hüququ üzrə birgə magistr proqramının təşkil olunmasını yüksək qiymətləndirən K.İmanov Agentliyin hər zaman təhsil proqramlarına dəstək verdiyini vurğulayıb, iki təhsil müəssisəsi arasında həyata keçiriləcək bu layihənin Azərbaycan-Fransa əməkdaşlığına töhfə verəcəyinə əminliyini bildirib.

Giyoni Protyer təmsil etdiyi universitetin Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri arasında ilk dəfə məhz Azərbaycan ilə bu sahədə layihə reallaşdırdığını diqqətə çatdırıb. O, Lion Universitetinin əqli mülkiyyət sahəsində 15 illik təcrübəsini Bakı Dövlət Universiteti ilə bölüşmək, hər iki universitetin hüquq fakültələrinin magistratura pilləsində əqli mülkiyyət hüququ sahəsində ikili diplom proqramı üzrə kadr hazırlığına başlamaq niyyətində olduqlarını qeyd edib. Fransalı professor bu layihənin həyata keçirilməsində Əqli Mülkiyyət Agentliyinin də yaxından iştirak etməsində maraqlı olduqlarını bildirib.

Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı, professor Əmir Əliyev "Əqli mülkiyyət hüququ" fənninin tədrisi məsələsində Agentliyin hər zaman onlara yardım etdiyini, bu qurumun bir neçə əməkdaşının hazırda fakültədə müəllim kimi çalışdığını bildirib. O, Agentliyin rəhbərliyinə bu layihənin başlanmasında göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib.

AZƏRTAC

# Milli Məclisin aqrar siyasət komitəsinin yaz sessiyasının iclası

**Yanvarın 30-da Milli Məclisin aqrar siyasət komitəsinin 2019-cu ilin yaz sessiyasında ilk iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda 2018-ci ilin payız sessiyasının yekunlarından danışılıb. Bildirilib ki, hesabat dövründə komitənin 11 iclası keçirilib, 27 məsələ müzakirə edilib, onlardan 15-i qanun layihəsidir. Sessiya ərzində komitənin ünvanına daxil olmuş 29 ərizə, şikayət və müraciətin 17-si araşdırılıb, lazımi tədbir görülməsi üçün müvafiq təşkilatlara göndərilib. Komitənin payız sessiyası dövründə fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

Daha sonra komitənin 2019-cu il yaz sessiyası üçün nəzərdə tutulan qanunvericilik işləri planı müzakirə olunub və təsdiqlənib. İşlər planına Azərbaycan Respublikası Prezidentinin, Ali Məhkəmənin, Baş prokurorun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihələri, eləcə də "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" qanun layihəsi daxildir.

AZƏRTAC

# Ceyranbatan: daşınmaz əmlakın qeydiyyatı xidmətləri ünvanınızda

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən daşınmaz əmlakın qeydiyyatı ilə bağlı xidmətlərin birbaşa ünvanlarda göstərilməsi vətəndaşların əlavə vaxt itkisinin qarşısını alır. "Əmlakı qeydiyyata al və mülkiyyətinə sahib ol" kampaniyasının hər həftə ayrı-ayrı kənd və qəsəbələrdə davam etməsi ilə sakinlərin rahatlığı təmin edilir.

Məmnunluğu artıran səyyar aksiyanın bu həftəki ünvanı Abşeron rayonu, Ceyranbatan qəsəbəsidir. Daşınmaz əmlak üzrə qeydiyyat xidmətlərindən faydalanmaq istəyən qəsəbə sakinləri 01 fevral tarixindək saat 09:00-dan 17:00-dək səyyar xidmət avtobusuna müraciət edə bilər. Ceyranbatan qəsəbəsi, 20 Yanvar küçəsi (Poçt idarəsinin qarşısında) ünvanında fəaliyyət göstərən mobil ofisdə komitə əməkdaşları tərəfindən yaşayış evləri, bağ evləri, həyətyanı torpaq sahələri və digər daşınmaz əmlaklar ilə bağlı qeydiyyat xidmətləri göstəriləcək.

"Əmlakını qeydiyyata al və mülkiyyətinə sahib ol" kampaniyasında vətəndaşları maraqlandıran suallar cavablandırılır, hüquqi məsləhətlər verilir. Sosial aksiya ölkə üzrə qeydiyyata alınmış daşınmaz əmlakların sayının artmasına, vətəndaşların mülkiyyət hüquqlarından daha geniş formada istifadəsinə şərait yaradır.

Mətbuat xidməti.

# Elektrik təchizatı şəbəkələrinə qoşulmanın yeni qaydaları ilə bağlı tədbir

**Energetika Nazirliyində sahibkarlıq subyektlərinin elektrik təchizatı şəbəkələrinə qoşulmasının yeni qaydaları ilə bağlı bir sıra dövlət qurumları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının, məsləhətçi və hüquq şirkətlərinin nümayəndələrinin iştirakı ilə "dəyirmi masa" keçirilib. Tədbir "Biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması sahəsində sahibkarlıq subyektlərinin elektrik təchizatı şəbəkələrinə qoşulması üzrə aparılmış islahatlarla bağlı İcra və Kommunikasiya Planı"na uyğun olaraq təşkil edilib.**

Elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə İşçi qrupunun rəhbəri, nazir müavini Samir Vəliyev son illər ölkədə bir çox sahələr kimi, kommunal sektorda da həyata keçirilən islahatlardan danışıb. Biznes mühitinin yaxşılaşdırılması, sahibkarların elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi istiqamətində dövlət başçısı İlham Əliyev tərəfindən verilmiş Fərmanın əhəmiyyətini qeyd edib. Bildirilib ki, 25 dekabr 2018-ci il tarixində "Sahibkarların mövcud və ya inşa edilən tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" 2017-ci il tarixli 1313 nömrəli Fərmana edilmiş dəyişikliklər sahibkarların fəaliyyətlərində bu sadələşməni hiss etməyə imkan yaradıb. Sahibkarların prosedurlarla tanışlığı məqsədilə "ASAN xidmət" və "ASAN kommunal" mərkəzlərində Texniki şuralar yaradılıb, 1 saylı "ASAN kommunal" mərkəzində tanışlıq turları təşkil edilib.

"Azərişıq" ASC-nin nümayəndəsi Vüqar Həşimov "Elektrik enerjisinin əldə edilməsi göstəricisi üzrə "Doing Business-2020" reytinqinin yaxşılaşdırılması məqsədilə Azərbaycan hökuməti tərəfindən aparılmış islahatlar"a dair təqdimatla çıxış edib. Bildirilib ki, "Doing Business-2019" hesabatında göstərilən nəticələrə əsasən elektrik təchizatı şəbəkələrinə qoşulma prosedurlarının sayı 7-dən 2-yə, müddət isə 41 gündən 20 günə endirilib. İlk prosedurda sahibkarlarla təmas yalnız enerji təchizatı şəbəkəsinə qoşulma ilə bağlı müraciətdən, razılaşdırma prosesindən ibarət olur. Sonrakı 10 gün ərzində isə elektrik qurğudrma işləri həyata keçirilir və texniki şərt, layihə və digər sənədlər sahibkara təqdim olunur. Əgər obyektə 400 metr yaxın məsafədə şəbəkənin balansında olan transformator varsa, vahid tarifə uyğun olaraq ödəniş edildikdən sonra 20 gün müddətində şəbəkəyə qoşulma həyata keçirilir. 150 kVt-dan yuxarı və ya 400 metr məsafədə transformator olmayan obyektlər üçün də sahibkar KOB evlərinə, "ASAN kommunal" və "ASAN xidmət" mərkəzlərinə yaxınlaşmalıdır. Bu prosesdə 10 gün müddətində sahibkara texniki şərt təqdim olunur. Texniki şərtin icrası sahibkarın seçiminə uyğun olaraq enerji təchizatı müəssisəsi, yaxud da ixtisaslaşmış müəssisələr tərəfindən həyata keçirilir.

Təqdimatda "Azərişıq" ASC-nin elektron xəritəsinin imkanlarından istifadə etməklə əraziyə getmədən məkanın seçilməsi, ölçmələrin aparılması, enerji təchizatı müəssisəsinə məxsus güc mərkəzinin texniki parametrlərinin təhlil edilməsi, sənədləşmə işinin tamamlanması proseslərinin üstünlükləri barədə məlumat verilib.

Tədbirdə son bir ildə həyata keçirilən yeniliklər barədə sahibkarların məlumatlandırılması üçün mətbuat konfranslarının keçirildiyi, videoçarxların hazırlandığı qeyd edilib, maarifləndirmə işinin aidiyyəti dövlət qurumlarının saytları və sosial şəbəkələrdəki səhifələri vasitəsilə də aparıldığı diqqətə çatdırılıb. Qeyd olunub ki, bu istiqamətdə tədbirlərin həyata keçirilməsi həm də bu islahatların beynəlxalq hesabatlarda öz əksini tapmasına kömək edəcək.

Səfər MAHMUDZADƏ,
"Respublika".

*Azərbaycan XİN:*

# Paşinyanın məntiqini anlamaq çətindir

**Ermənistanın baş naziri Nikol Paşinyan "Qarabağ məsələsində sülh əvəzinə ərazilərin qaytarılması imkanlarını müzakirə etməyəcəyik" kimi bəyanatla çıxış edib. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidməti bəyanata münasibət bildirib.**

AZƏRTAC xəbər verir ki, mətbuat xidmətinin bununla bağlı yaydığı açıqlamada deyilir: "Paşinyanın məntiqini anlamaq çətindir. Məlum olduğu kimi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədrlərinin himayəsi altında aparılan danışıqların təməlində məhz Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələrinin çıxarılması durur. Bu tələb BMT-nin Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsində, eləcə də münaqişənin həlli ilə bağlı, demək olar ki, bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə əks olunur. Belə olduğu təqdirdə, sual meydana çıxır: Paşinyanın bu mövqeyi onun danışıqlardan imtina etməsi deməkdirmi?".

AZƏRTAC

*Səfir Auqusto Massari:*

# Sumqayıt Kimya Sənaye Parkı məndə çox böyük təəssürat yaratdı

**Sumqayıt Kimya Sənaye Parkı məndə çox böyük təəssürat yaratdı. Əvvəl də burada olmuşdum. Buradakı sənaye zavodlarının bəziləri İtaliya şirkətləri tərəfindən tikilib. Bildiyiniz kimi, Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarellanın iştirakı ilə burada "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun da açılışı olub və mən də öz dövlətimin başçısını müşayiət etmişəm.**

Bu sözləri İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari AZƏRTAC-a açıqlamasında deyib.

"Bu gün buradakı sənaye zavodlarının fəaliyyəti ilə bağlı əldə etdiyim əlavə məlumatlar mənə enin olmağa imkan verir ki, sizdə işlər düzgün qaydada gedir. Azərbaycan hökumətinin əsas hədəfi iqtisadiyyatı şaxələndirməkdir. Düşünürəm ki, indi əsas məsələlərdən biri də bu məhsulların Avropa bazarlarına çıxarılması üçün nəqliyyat və logistikadır. Məncə, bu istiqamətdə də hökumətiniz tərəfindən düzgün addımlar atılır", - deyə A.Massari əlavə edib.

AZƏRTAC

*Səfir Hüsnan Bəy Fanani:*

# Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə ildən-ilə inkişaf edir

Bu mənim Sumqayıta ilk səfərimdir. Sumqayıt Azərbaycanın böyük sənaye şəhəridir. Burada sənaye kompleksləri, böyük şirkətlər var. Sumqayıt Kimya Sənaye Parkı çox müasirdir.

Bu sözləri İndoneziyanın Azərbaycandakı səfiri Hüsnan Bəy Fanani AZƏRTAC-a açıqlamasında deyib.

"Sumqayıt çox xoşuma gəldi. Burada gənclər çoxdur. Bu da Azərbaycanın gələcəyinə böyük imkanlar açır. Azərbaycan daha da inkişaf edəcək. Ölkə iqtisadiyyatı Prezident İlham Əliyevin rəhbərliyi ilə ildən-ilə inkişaf edir. Azərbaycan Mərkəzi Asiyada və Qafqazda ən inkişaf etmiş ölkədir", - deyə səfir əlavə edib.

Diplomat, həmçinin 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunmasına da toxunaraq deyib: "Azərbaycan xoşbəxt ölkədir ki, onun Nəsimi kimi mütəfəkkiri olub. Nəsimi biliyin, fəlsəfənin atasıdır. Mən Prezident İlham Əliyevə 2019-cu ili Azərbaycanda "Nəsimi ili" elan etdiyinə görə minnətdarlığımı bildirirəm".

Xatırladaq ki, yanvarın 30-da Azərbaycan Respublikasının Xarici İşlər, İqtisadiyyat nazirlikləri və Prezident Administrasiyası ölkəmizdə akkreditə olunmuş səfirliklərin və beynəlxalq təşkilatların nümayəndələrinin Sumqayıt şəhərinə səfərini təşkil edib. Sumqayıt şəhərinin inkişafı ilə yaxından tanış olmaq məqsədilə təşkil olunmuş bu səfərdə ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun 60-dan çox nümayəndəsi iştirak edib. Səfər çərçivəsində diplomatlar Sumqayıt Kimya Sənaye Parkında, Sumqayıt Texnologiyalar Parkında, Sumqayıt Dövlət Dram Teatrında, həmçinin Lüdviqshafen parkında, "Kimyaçı" Mədəniyyət Sarayında, Heydər Əliyev Parkında, Heydər Əliyev Mərkəzində, Bayraq Meydanında, Bayraq Muzeyində və dənizkənarı bulvarda olublar.

AZƏRTAC



# KAMİLLİYƏ APARAN YOL

**Peşəkar teatr islam şərqində ilk dəfə Azərbaycanda, Bakı şəhərində təşəkkül tapıb. Sənətkarlarımız Tiflisdə, İrəvanda, Aşqabadda, Dərbənddə, Təbrizdə, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın müxtəlif şəhərlərində teatr sənətinin bünövrəsini qoyublar. Bu gün bir sıra xarici ölkələrdə səhnə xadimi olan yurddaşlarımız çalışırlar. Onların arasında rejissor, əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor Əflatun Nemətzadənin səmərəli fəaliyyəti xüsusi yer tutur.**

Xarici ölkələrdə Əflatun Nemətzadə qədər çoxlu dram, opera və operetta hazırlayan ikinci rejissorumuz yoxdur. Yəmən Ərəb Respublikasında teatr sənətinin bünövrəsini Əflatun Nemətzadə qoyub. Türkiyənin Mərsin şəhərində Opera və Balet Teatrının yaranması və açılışı onun adı ilə bağlıdır. Türkiyədə "Aktyor sənəti", "Opera sənəti", "Musiqili teatr rejissorluğu", "Səhnə texnikasının əsasları" dərslik kitablarını ilk dəfə Əflatun Nemətzadə yazıb.

Əflatun Nemətzadənin "TÜRKSOY"un xətti ilə hazırladığı Üzeyir bəy Hacıbəylinin "Koroğlu" operası Ankarada, İstanbulda, Samsunda, Bişkekdə, Astanada, Daşkənddə, Kazanda, həmçinin Bakıda göstərilib. Bu operada bütün türkdilli respublikaların opera sənətçiləri iştirak ediblər. Kolletiv İtaliyanın La Skala teatrında tamaşa oynamağa dəvət alıb. Təəssüflər olsun ki, parlaq istedad sahibi olan bu sənətkar Azərbaycandan daha çox xaricdə məşhurdur. Ona görə də sənətkarın ömür tarixçəsindən bəzi səhifələri qısaca xatırlatmaq istəyirəm.

Əflatun Nemət oğlu Nemətzadə 1944-cü il aprelin 25-də Astara rayonunun Ərçivan kəndində ziyalı ailəsində anadan olub. 1951-1961-ci illərdə orta məktəbi bitirib. Sumqayıt boruprokat zavodunda fəhlə işləyib. Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun musiqili komediya aktyorluğu fakültəsində (1962-1967), Leninqrad (indiki Sankt-Peterburq) Dövlət Konservatoriyasında opera rejissoru ixtisası üzrə (1970-1975) təhsil aldığı illərdə Bakıda Musiqili Komediya Teatrında aktyor işləyib. Leninqradda təhsil alanda isə müsabiqədə qalib gələrək 9 ay Polşanın Varşava şəhərində sənət təcrübəsi keçib. Bakıda Teatr Muzeyində elmi işçi işləyib, həmçinin Milli Elmlər Akademiyası İncəsənət İnstitutunun teatr və kino şöbəsinin aspirantı olub. Tiflisdə dissertasiya müdafiə edərək sənətşünaslıq namizədi elmi dərəcəsi alıb. Sonralar Türkiyədə doktorluq müdafiə edib.

Ali təhsilini 1975-ci ildə başa vuraraq təyinatla Sverdlovsk Opera və Balet Teatrına rejissor göndərilib. Azərbaycan hökumətinin dəvəti ilə respublikamıza gəlib. 1976-1980-ci illərdə Moskva Böyük Teatrında keçirilən rejissor müsabiqəsində qalib olub. SSRİ xalq artisti, dövrünün canlı klassiki sayılan Boris Pokrovskinin yanında assistent və ikinci rejissor kimi çalışıb. Bu teatrda hazırlanan Cüzeppe Verdinin "Otello", Nikolay Rimski-Korsakovun "Qar qız", Eduard Lazarevin "İnqilab dühası" opera tamaşalarının yaradıcı heyətində olub.

1980-1984-cü ildə Yəmən Xalq Demokratik Respublikasına uzunmüddətli ezamiyyətə göndərilib. Burada Musiqili Dram Teatrını qurub və həmçinin Yəmən mədəniyyət nazirinin teatr üzrə məsləhətçisi olub. Teatrın açılışında "Məşədi İbad" operettası göstərilib.

1984-cü ildə Moskvaya qayıdıb və bir müddət orada işləyəndən sonra Bakıya gəlib. 1991-ci ilə qədər Opera və Balet Teatrında işləyib. Xalq artisti Alim Qasımovu "Leyli və Məcnun" operasında Məcnunun ifasına, daha bir neçə ifaçını muğam operalarında baş rollara hazırlayıb. Fidan Qasımova Cakomo Puççininin eyniadlı operasında Toska rolunu Əflatun Nemətzadənin rejissorluğu ilə oynayıb.

1991-ci ildə Türkiyə mədəniyyət naziri Namik Kamal Zeybək tərəfindən Ankara Dövlət Opera və Balet Teatrına dəvət olunub. Mərsin Dövlət Opera və Balet Teatrında baş rejissor işləyib. Bu teatr ilk pərdələrini "Arşın mal alan" operettası ilə açıb (3 yanvar 1993-cü il). Ankara Dövlət Konservatoriyasında (1992-1995) və Bilkənd Universitetində (1995-2003) aktyorluq sənətindən dərs deyib. Bilkənd Universitetinin rektoru, professor Əli Doğramacının təklifi ilə aktyorluq və rejissorluq fakültələrinin yeni dərs proqramlarını yazıb. 2003-cü ilin fevralından Ankara Qazi Universitetinin jurnalistika, kino və televiziya fakültələrində bədii yaradıcılıqdan, ssenari qurumundan, səhnə mədəniyyətindən dərs deyir. Bu ixtisaslar üzrə də dərs proqramını məhz Əflatun Nemətzadə işləyib. Həmin fənlərdən Ankara Dövlət Konservatoriyasında da mühazirələr oxuyur.

Əflatun Nemətzadə Ankara Opera Genel Müdirliyinin sifarişi ilə Pyotr Çaykovskinin "İolanta" və Sergey Raxmaninovun "Aleko" operalarının librettolarını Osmanlı türkcəsinə çevirib (oğlu Tale ilə birlikdə). Türkiyə klassik nəsrinin dünya şöhrətli yazıçısı Rəşad Nuri Güntəkinin "Dodaqdan qəlbə" romanının motivləri əsasında Durmuş Önərlə birlikdə libretto yazıblar. Həmin libretto əsasında Türkiyə Mədəniyyət Nazirliyinin sifarişi ilə bəstəkar Çətin İşıqgözlü opera bəstələyib. Həmin opera Əflatun Nemətzadənin və C.Gökçərin maraqlı rejissor təfsirində 1996-cı ildə Ankara Opera və Balet Teatrında tamaşaya qoyulub.

Publisistika ilə də ciddi məşğul olur. Azərbaycanın tarixinə, mədəniyyətinə, incəsənətinə, çağdaş dövrdəki iqtisadi dirçəlişinə aid yüzlərlə qəzet məqaləsi yazıb. Klassik irsimizin dühaları haqqında portret-oçerklər çap etdirib. Xüsusən "Türk Xəbər", "Ankara il" və "Anadolu" qəzetlərində öz səhifəsi və köşəsi var. Türkiyənin müxtəlif televiziyalarında Azərbaycan Respublikasının bugünü haqqında silsilə verilişlər hazırlayıb. Türkiyədə "Oyanış" romanı, "Orta çağın incisi" kitabı çap olunub. "Səhnə həyatım" adlı avtobioqrafik kitab üzərində çalışır.

Belə zəngin həyat bioqrafiyası olan Əflatun Nemətzadə zəngin təcrübə toplamış rejissordur. Uzun illərdir onun rejissor üslubu, yaradıcılıq dəstxətti örnək kimi nümunə göstərilir. Hazırladığı tamaşalar yüksək sənətkarlıq keyfiyyətləri ilə səciyyəvidir. Onun yaradıcılıq üslubunun, rejissorluq estetikasının bəzi xüsusiyyətlərini nəzərə çatdırmaq istəyirəm.

Klassik dramaturgiyaya və klassik opera-operettalara Əflatun Nemətzadənin özünün estetik yanaşma prinsipləri var. Sənətkar bu prinsipə illər uzunu sadiq qalmaqla yanaşı, ilbəil bu təcrübəni daha da təkmilləşdirir. Onun gəldiyi qənaət rejissorun tutduğu kamil sənət yolunun bir cığırıdır. Əflatun klassik əsəri tamaşaya qoyanda həmin irsə heç vaxt ağ neftlə yanan çıraq anlamında yanaşmır. Rejissor dünənin mövzusuna nəinki bugünün, hətta sabahın gözü, fikir möhtəşəmliyi ilə baxmağı bacarır. Elə buna görə də Əflatun Nemətzadənin quruluş verdiyi Aleksandr Borodinin "Knyaz İqor", Cakomo Puççininin "Toska", Şarl Qunonun "Faust", Zülfüqar bəy Hacıbəylinin "Aşıq Qərib", Müslüm Maqomayevin "Şah İsmayıl" (Azərbaycanda), Üzeyir bəy Hacıbəylinin "Koroğlu", Mukan Tolobayevin "Bircan və Sara" ("TÜRKSOY"un xətti ilə bir neçə ölkədə), Jorj Bizenin "Karmen" (Yakutiyada), Uilyam Şekspirin "Otello" (Yəməndə), Qaetano Donisettinin "Məhəbbət şərbəti", Maksim Qorkinin "Meşşanlar", Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan", Florimon Ervenin "Madumazel Nituş", Jan Batist Molyerin "Skapenin kələkləri", Covanni Perqolezinin "Xidmətçi qadın" (Türkiyənin müxtəlif şəhərlərində), Nəbi Xəzrinin "Sahillər və talelər" (Özbəkistanda), Anarın "Şəhərin yay günləri" (Tatarıstanın Kazan şəhərində) operaları, operettaları və dramları forma orijinallığı və mövzuya çağdaş münasibət baxımından yüksək sənətkarlıq nümunələri kimi dəyərlidir.

Əflatun Nemətzadə, janrından, mövzunun əhatə dairəsindən asılı olmayaraq, quruluş verdiyi tamaşanın daxili ləngərini, ritm ahəngini, ideya yükünü, fikir dərinliyini tapmaqda səriştəlidir. Heç vaxt müraciət etdiyi pyesi və ya operanı müəllifin yazdığı kimi "qavrayıb" tamaşaya hazırlamır. Onun tamaşaya hazırladığı əsərin səhnə təcəssümünə özünün yanaşma prinsipi var. Əflatun Nemətzadə quruluş verdiyi səhnə əsərlərində "tamaşanın müəllifi" hüququnu ləyaqətlə qazanmış sənətkardır.

Opera tamaşalarında rejissorlar əsasən vokal ifaçılığına üstünlük verilirlər, obrazın dramaturji təqdimi ikinci planda qalır. Əflatun Nemətzadə özünün rejissor yaradıcılığında aktyorun rol-obraz üzərində analitik təhlilini əsas, mühüm prinsip kimi götürür. Onun rejissoru olduğu Şıxəli Qurbanov və Süleyman Ələsgərovun "Milyonçunun dilənçi oğlu", "Özümüz bilərik" (Türkiyə), Üzeyir bəy Hacıbəylinin "Məşədi İbad" (Yəmən) musiqili əsərlərinin tamaşasında maraqlı aktyor ifaları ilə qarşılaşırıq. Yaradıcılıq təxəyyülü qanadlı, ifadə vasitələri zəngin olan rejissor pauzaların psixoloji nöqtəsini tamaşanın əsas akkordu ilə ustalıqla birləşdirmək bacarığına malikdir.

Rejissor Azərbaycanda, Yəməndə, Türkiyədə hətta ailə-məişət mövzulu əsərlərə də səhnə quruluşu verib. Həmişə də çalışıb ki, rejissor ideyasının həllində ictimai motivlərin fəlsəfi dərinliyini gur işıqla canlandırsın, sosial dəyərləri qabarıq versin. Belə bir cəhddə olması və onun estetik bədii həllini incə həssaslıqla tapması Nemətzadənin tamaşalarına psixoloji bitkinlik, fəlsəfi fikir dərinliyi, emosional cazibədarlıq gətirir.

Fəlsəfi-psixoloji monumental tamaşalarda rejissorun idrakı, təxəyyülünün gücü zərifliklə, emosionallıqla, psixoloji çalarlardan şirələnən lirizmlə ahəngdar cazibə yaradır. Onun rejissoru olduğu tamaşaların sürət-ritmində fəlsəfi daxili ləngər var. Məzmun və forma vəhdəti möhtəşəm monumentallıqla təcəssüm etdirilir və onun sürət-ritmini fəlsəfi ləngər tənzimləyir.

Yorulmaq bilməyən zəhmətkeşliyi və sənətin incəliklərinə günü-gündən daha dərindən vaqif olması Əflatun Nemətzadənin yaradıcılığına möhtəşəm əzəmət verir. Rejissor quruluş verdiyi tamaşanın ali məqsədini psixoloji münasibətlərin, əqidə mübarizələrinin mahiyyətində, fərdin dünyanı dərkində axtarır. Onun tamaşalarında ali məqsəd əsas ideyadan, mövzunun şah damarından şirə çəkir. Mövzunu janrın qanunları çərçivəsində, cəmiyyətin ictimai-sosial, çağdaş mənəvi-əxlaqi problemləri ilə əlaqələndirməyi bacarır. Verdiyi mürəkkəb mizanlar müəyyən dinamik, musiqili, poetik və ifadəli ritmə əsaslanır.

Əflatun Nemətzadə Türkiyənin teatr ictimaiyyətində hörməti uca tutulan sənətkardır. Onun yetirmələri iyirmidən çox dövlət teatrında çalışır. O, rejissor, pedaqoq, publisist, dramaturq və ssenarist kimi fəaliyyətini bu gün də səmərəli şəkildə davam etdirir.

Mən "Koroğlu" və "Bircan və Sara" operalarının tamaşalarına Türkiyədə baxmışam. Qürur hissilə fəxr etmişəm ki, həmyerlimiz belə möhtəşəm sənət əsərlərinə bənzərsiz səhnə həyatı verib. "Koroğlu" operasının Azərbaycanda üç quruluşunu görmüşəm. Əflatunun quruluşundakı əzəmət, monumental-romantik ruh, qəhrəmanlıq pafosu, aktyor ifalarının dramatizmi son dərəcə fövqəladə ecazkarlıqla, yüksək estetik cazibədarlıqla işlənilib.

Bütün bunlar bir soydaşımız kimi məndə də qürur doğurur və qəlbimdə bir qədər qısqanclıq da oyanır. Fikirləşirəm ki, ustad sənətkarın yaradıcılığının bütün məhsulları gözəldir, ecazkardır, əsl sənət nümunələridir. Amma Əflatun Nemətzadənin çoxdandır Azərbaycan Dövlət Opera və Balet Teatrında tamaşa hazırlamağa dəvət almaması məni rahatsız edir.

Arzu edirəm ki, heç vaxt karyera güdməyən, bütün varlığı, ruhu, yaradıcılıq qayəsi ilə opera sənəti ilə nəfəs alan Əflatun Nemətzadənin adını Bakının teatr afişalarında da görüm.

Gənclik coşqunluğu və işgüzarlığı ilə milli mədəniyyətimizin inkişafında diqqətəlayiq xidmətlər göstərən Əflatun Nemətzadəyə uğurlar arzulayıram.

**İlham RƏHİMLİ.**

*2 fevral Gənclər Günüdür*

# Dövlət qayğısı gənclərin fəaliyyətinə güclü stimuldur



*Ölkəmizdə gənclər siyasəti uğurla həyata keçirilir. Ulu öndər, daha şəxsiyyət Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra gənclərlə işin dövlət siyasətinin əsas tərkib hissəsinə çevrilməsi, onlara diqqət və qayğının təzahürü olan bir sıra fərman və sərəncamların imzalanması Azərbaycan gəncliyini daha fəal olmağa çağırdı. Gənclərimiz bu çağırışlara lazımi şəkildə cavab vermək, göstərilən etimadı doğrultmaq, quruculuq prosesində daha yaxından iştirak etmək üçün əzmlə, coşqu ilə çalışırlar.*

*2 fevral Gənclər Günüdür. Biz bununla bağlı* ***Bakının Nərimanov rayonunun Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzovla*** *görüşüb söhbət etdik. O, bizi maraqlandıran məsələlərə aydınlıq gətirərək dedi:*

– Müstəqil Azərbaycanda gənclərin ictimai həyatın bütün sferalarında avanqard qüvvəyə çevrilməsini təmin etmək dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Məhz yaradılan geniş imkanlar sayəsində rayonumuzun gəncləri dövlət quruculuğu prosesində mühüm rol oynayır, həyata keçirilən siyasi, iqtisadi, humanitar layihələrin reallaşmasında aktiv fəaliyyətləri ilə seçilirlər. 1997-ci ildən hər il fevralın 2-sinin Gənclər Günü kimi təntənəli qeyd olunması dövlət qayğısının bariz nümunəsidir.

Vurğulamaq lazımdır ki, ölkənin ictimai-siyasi həyatında gənclərin rolu artdığından 2018-ci ildə uğurlu nəticələrə imza atılmış, Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələr əməli işə çevrilmişdir.

Nərimanov Rayon Gənclər və İdman İdarəsi tərəfindən 2018-ci il ərzində 170 tədbir keçirilmiş, tədbirlərdə 15440 nəfərdən çox uşaq, yeniyetmə və gənc iştirak etmişdir.

Rayon ərazisində yerləşən orta ümumtəhsil məktəblərində təhsil alan şagirdlər arasında maarifləndirmə işləri aparılır, onlar zərərli vərdişlərdən uzqlaşdırılır, kütləvi bədən tərbiyəsi və idman yarışlarına cəlb edilir.

Ötən il "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Proqramının müvafiq bəndlərinin icrası ilə bağlı bir sıra işlər görülüb.

16 fevral 2018-ci il tarixdə Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində Nərimanov Rayon İcra Hakimiyyətinin və Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə 2016-cı ilin aprel döyüşlərində şəhid olmuş Mahir Mirzəyevin anadan olmasının 24-cü ildönümünə həsr edilmiş tədbir keçirilib.

1 mart 2018-ci il tarixdə "Premier Expo" otelində Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin və Nərimanov Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının Tədbirlər Planının 5.7.3 yarımbəndinin icrasını təmin etmək məqsədilə gənclər, xüsusi ilə ilk dəfə səsverənlər arasında maarifləndirmə işinin aparılması, həmçinin gənclərin seçkilərdə fəallığının təmin edilməsi üçün Azərbaycanda növbədənkənar Prezident seçkilərində ilk dəfə səs verəcək "Uğurlu gələcəyinə səs ver!" rayon gənclərinin görüşü keçirilib.

06 mart 2018-ci il tarixdə "Odlar Yurdu" Universitetində Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin, Nərimanov Rayon Gənclər və İdman İdarəsinin və "Odlar Yurdu" Universitetinin birgə təşkilatçılığı ilə Nərimanov rayonu ərazisində yerləşən ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri arasında "Yaradıcı insanın yaradıcılığı" adlı musiqi festivalı keçirilib.

2018-ci ildə ümummili lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş bir sıra tədbirlər keçirilmişdir: 03 may 2018-ci il tarixində Azərbaycan Kooperasiya Universitetində xalqımızın "Heydər Əliyevin milli dövlətçilik ideologiyası "Azərbaycan və dövlətçilik" adlı konfrans, 08 may 2018-ci il tarixdə Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetində Respublika elmi-praktik konfrans, 10 may 2018-ci il tarixdə Nərimanov Rayon İcra Hakimiyyətinin iclas zalında "Heydər Əliyev və Müstəqil Azərbaycan" mövzusunda rayon ərazisində yerləşən orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri arasında inşa müsabiqəsinin qaliblərinin mükafatlandırılma mərasimi keçirilmişdir.

17 may 2018-ci il tarixdə Nərimanov Rayon Gənclər və İdman İdarəsinin iclas zalında "Açıq söhbət" layihəsi çərçivəsində Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medal, "Vətən Naminə" medalı və "General Həzi Aslanov" medallarının laureatı Kamil Musavi ilə Nərimanov rayon gənclərinin görüşü keçirilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibəti ilə bir sıra tədbirlər həyata keçirilib: 23 may 2018-ci il tarixdə Nərimanov rayonunda yerləşən 177 saylı orta məktəbdə, 24 may 2018-ci il tarixdə Nərimanov Rayon İcra Hakimiyyətinin iclas zalında Nərimanov Rayon İcra Hakimiyyətinin, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nərimanov Rayon İdarəsinin və Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibəti ilə "Azərbaycan dövlətçilik tarixində Xalq Cümhuriyyətinin rolu" mövzusunda orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri arasında inşa yazı müsabiqəsinin qaliblərinin mükafatlandırılma mərasimi, 29 may 2018-ci il tarixində 193 saylı tam orta məktəbdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə tədbir, 31 may 2018-ci il tarixdə Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Nərimanov Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Nərimanov Rayon İcra Hakimiyyətinin akt zalında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş rayon ərazisində fəaliyyət göstərən ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri arasında Şən və Hazırcavablar Klubu üzrə "Yaz Kuboku" keçirilmişdir.

03 oktyabr 2018-ci il tarixdə Nərimanov Rayon İcra Hakimiyyətinin iclas zalında Bakı Şəhər Gənclər və İdman Baş idarəsinin və Nərimanov Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "5 oktyabr - Müəllimlər günü" münasibəti ilə Nərimanov rayonunda yerləşən orta ümumtəhsil məktəblərinin gənc müəllimləri arasında bilik yarışması keçirilmişdir.

25 oktyabr 2018-ci il tarixdə Nərimanov Rayon İcra Hakimiyyətinin iclas zalında Azərbaycanın görkəmli şairi, dramaturqu Hüseyn Cavidin anadan olmasının 136-cı illiyinə həsr edilmiş "Azərbaycan repressiya qurbanlarına Heydər Əliyevin qayğısı" adlı tədbir keçirilmişdir.

"9 noyabr - Dövlət Bayrağı Günü" münasibəti ilə bir sıra tədbirlər keçirilib: 06 noyabr 2018-ci il tarixdə Nərimanov Rayon İcra Hakimiyyətinin iclas zalında "9 noyabr - Azərbaycan Dövlət Bayrağı günü" münasibəti ilə Nərimanov rayonunda yerləşən orta ümumtəhsil məktəblərinin şagirdləri arasında "Mənim bayrağım" adlı inşa - yazı və rəsm müsabiqələrinin mükafatlandırma mərasimi, 07 noyabr 2018-ci il tarixində Azərbaycan Kooperasiya Universitetində Nərimanov Rayon Gənclər və İdman İdarəsinin, Azərbaycan Kooperasiya Universitetinin və Universitetin Tələbə-Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə "9 noyabr - Dövlət Bayrağı Günü" münasibətilə "Hərəyə bir bayraq" adlı aksiya, 08 noyabr 2018-ci il tarixdə Nərimanov Rayon İcra Hakimiyyətinin iclas zalında Nərimanov Rayon Gənclər və İdman İdarəsinin və Azərbaycan Turizm və Menecment Universitetinin təşkilatçılığı ilə "9 noyabr - Dövlət Bayrağı Günü" münasibəti ilə Universtetin tələbələri arasında keçirilmiş "Nə? Harada? Nə zaman?" intellektual oyununda qalib gəlmiş komandaların mükafatlandırılma mərasimi olmuşdur.

Nəcəf Novruzov son olaraq qürur hissi ilə bildirdi ki, Nərimanov rayonunun gəncləri ölkəmizdəki möhtəşəm quruculuq mərhələsində üzərlərinə düşən vəzifələri layiqincə dərk edirlər. Əminliklə söyləmək olar ki, gənclərimiz fəaliyyətlərində bəşəri və milli dəyərlərə sahib olacaq, beynəlxalq səviyyədə uğurlar qazanacaqlar.

**Söhbəti qələmə aldı:**
**Qədir ASLAN,**
**"Respublika".**

# Respublika Gənclər Təşkilatları Milli Şurasının mətbuat konfransı

**Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının media nümayəndələri ilə görüşü keçirilib.**

Görüşdə tədbiri giriş sözü ilə açan Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) sədri Məryəm Məcidova ilk öncə hər kəsi qarşıdan gələn 2 Fevral Gənclər Günü münasibətilə təbrik edib. Daha sonra məlumat üçün bildirib ki, hazırda öz ətrafında 128 gənclər təşkilatını birləşdirən Gənclər Təşkilatları Milli Şurası 21 noyabr 1995-ci ildə təsis olunmuşdur. Ölkə gəncləri və təşkilatların yeganə konfederativ strukturu, vahid koordinasiya və əməkdaşlıq mərkəzi olan təşkilatın əsas məqsədi öz tərkibinə daxil olan gənclər təşkilatlarının fəaliyyətini əlaqələndirmək, onların inkişafı üçün şərait yaratmaq, üzv təşkilatların milli, regional və beynəlxalq səviyyədə maraqlarının həyata keçirilməsinə çalışmaq, gənclərin problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində birgə iş aparmaq, gənclər və onların təşkilatları arasında ümummilli məsələlərin həllində həmrəyliyə nail olmaqdır.

Qurumun sədri əlavə olaraq media nümayəndələri ilə əməkdaşlıq istiqamətlərinin önəmliliyini vurğulayaraq son dövrdə medianın fəaliyyətinin böyük önəm kəsb etməsindən, informasiyanın gənclərə çevik və operativ şəkildə ötürülməsi imkanlarından danışıb.

Görüşdə Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının Baş katibi Hüseyn Məmmədov qurumun 2019-cu il üzrə fəaliyyət planı barədə ətraflı məlumat vermişdir ki, "Azərbaycanın gənclər təşkilatları dayanıqlı inkişaf naminə", "Azərbaycan üçün bir olaq: gənclər təşkilatının onlayn töhfəsi", "Gənclər təşkilatlarının iştirakçılığı və inklüzivlik" proqramları növbəti il ərzində Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının əsas fəaliyyət strategiyasına daxil olaraq onlarca layihə və kampaniyaları özündə cəmləşdirəcək.

Görüşün yekununda Məryəm Məcidova Gənclər Təşkilatları Milli Şurasının 24 illik fəaliyyətini Azərbaycan mediası ilə birgə qət etdiyini bildirərək qarşıdakı illərdə uğurlu və qarşılıqlı əməkdaşlığın davam etdiriləcəyini bildirib.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**

# Övladlığagötürmə sahəsində idarəetmə təkmilləşdirilir

*Bu məqsədlə aparılan işlərə dair mətbuat konfransı keçirilib*

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 10 dekabr 2018-ci il tarixli 393 nömrəli Fərmanı ilə verilmiş tapşırıqların icrası ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə tədbirlər planı hazırlanaraq təsdiq edilib. Bunu övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə aparılan işlərlə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən mətbuat konfransında nazirliyin Əlilliyi olan şəxslərin sosial müdafiəsi siyasəti şöbəsinin müdiri Sabir Qocayev bildirib.**

Sabir Qocayev diqqətə çatdırıb ki, Fərmana əsasən övladlığagötürmə sahəsində idarəetmə mexanizminin, valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların, habelə onları övladlığa götürməyi arzu edən şəxslərin uçotunun təkmilləşdirilməsi, eləcə də övladlığagötürmə prosesində şəffaflığın təmin edilməsi, övladlığa götürülmüş uşaqların yeni ailələrdə yaşaması və inkişafı prosesinə nəzarətin gücləndirilməsi məqsədilə övladlığagötürmə sahəsində dövlət siyasətinin və tənzimləmənin həyata keçirilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılıb.

Sənəddə nazirlik üzrə müəyyən olunan vəzifələr sırasına, o cümlədən valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların və onları övladlığa götürməyi arzu edən şəxslərin (Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin) vahid uçotunun elektron qaydada aparılması, övladlığagötürmənin əsaslandırılması, övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu haqqında rəy verilməsi və s. daxildir. Nazirliyə, eləcə də Azərbaycan Respublikasının vətəndaşı olan uşaqları əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin övladlığa götürməsinə razılıq verilməsi və həmin şəxslərə hüquqi yardım göstərən akkreditə edilmiş orqanın müəyyənləşdirilməsi, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülmüş Azərbaycan Respublikası vətəndaşı olan uşaqların həyat şəraiti ilə bağlı nəzarət tədbirlərinin görülməsi və digər vəzifələr həvalə olunub.

Hazırda Nazirlik tərəfindən "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi qaydaları"nın qərar layihəsinin, valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsini stimullaşdıran tədbirlərin və dəstəkləyici mexanizmlərin, müvafiq qanunvericilik aktlarında dəyişiklik layihələrinin hazırlanması üçün işçi qrup fəaliyyət göstərir.

Sabir Qocayev övladlığa verilən uşaqlarla bağlı nəzarət tədbirlərinin mütəmadi aparılacağını da deyib və bildirib ki, övladlığa verilməsi çətin olan uşaqların övladlığa verilməsini stimullaşdırmaq üçün əlavə dəstək mexanizmləri təklif olunacaqdır.

**"Respublika".**

# Ömür dedikləri bir karvan yolu



**Əgər o yaşasaydı, 90 yaşı tamam olurdu. Yusif müəllim heç xəyalına da gətirməzdi ki, 1988-ci ilin qarlı-çovğunlu günlərində erməni xəyanəti nəticəsində aşıqlar yurdu ulu Göyçədən, alimlər kəndi adlanan Nərimanlıdan ayrılacaq, köç karvanları sıldırımlı dağ yolları ilə Azərbaycan torpağına doğru istiqamət götürəcəkdir...**

Göyçənin ziyalılarından sayılan, müəllimlik peşəsinə sidq ürəklə bağlanan Yusif Bayramovun bənzərsiz həyat yolu çoxlarına örnəkdir. O, 1929-cu ildə Göyçə mahalının Nərimanlı kəndində, kasıb bir ailədə dünyaya göz açmış, uşaqlıqda Göyçə gölünün nəğməli sahillərini, "Çalmalı" dağının atlas geyimli yamaclarını qarış-qarış gəzmiş, şərbət bulaqların suyunu acgözlüklə başına çəkmiş, necə deyərlər, yaşıl çəmənlər döşəyi, sıldırım qayalar yastığı olmuşdur.

Yusif Bayramov Böyük Məzrə kənd orta məktəbini fərqlənmə ilə başa vurduqdan sonra 1948-ci ildə İrəvan Pedaqoji İnstitutuna daxil olmuş, müəyyən səbəblərdən təhsilini Azərbaycan Pedaqoji Universitetində davam etdirmiş, tarix fakültəsini bitirdikdən sonra qəlbinin səsi ilə Göyçənin Nərimanlı kəndinə qayıtmış, müəllimlik fəaliyyətinə başlamışdır.

Deyilişə görə, Yusif müəllim ilk maaşından atası Əliyə, anası Savada, baleyli tayfasının yaşlı insanlarına kiçik hədiyyələr almışdır. Yusif müəllim telli sazın vurğunu idi. Hərdən xudmani məclislərdə sədəfli sazı sinəsinə sıxardı. Onun ifasında səslənən "Cəlili", "Baş Sarıtel", "Göyçə gülü", "Ruhani" və digər aşıq mahnıları hamıda xoş ovqat yaradardı. Bakının "Neftçi" futbol komandasının pərəstişkarı idi, "Ararat" komandası məğlub durumda olanda sevinci köksünə sığmazdı.

Yusif müəllim şeirin, poeziyanın vurğunu idi. Poetik ilhamla hazırladığı bədii yazılar, şeirlər mətbuat səhifələrinə çıxar, İrəvandakı Azərbaycan radio verilişlərində səslənərdi.

Yusif Bayramov tarix fənnini pedaqoji ustalıqla tədris edir, qabaqcıl təcrübənin tətbiqinə üstünlük verir, qürur hissi keçirirdi ki, vaxtilə dərs dediyi məzunlardan Səfiyar Musayev, Qurban Bayramov, Maqsud Cəlilov, Rasim Məmmədov və başqaları istedadlı alim kimi tanınmışlar.

1988-ci ildə Qərbi Azərbaycandakı bütün soydaşlarımız kimi, el gözündə pillə-pillə ucalan, fitri istedadı ilə insanların rəğbətini qazanan Yusif Bayramovun xoş növrağı pozulmuşdu, dindirəndə qəlbinin sarı simi dilə gəlirdi. Bu, heç də səbəbsiz deyildi. Qərbi Azərbaycandakı soydaşlarımız ermənipərəst Qorbaçovun xəyanəti sayəsində ata-baba torpaqlarından zorla qovulur, uydurma Qarabağ problemini ortaya atan nankor erməni daşnakları son deportasiyanı qəddarlıqla, zülm, işgəncə ilə həyata keçirirdilər.

Belə bir çətin məqamda, necə deyərlər, sümük bıçağa dirənəndə Yusif Bayramov, Əhməd Hacıyev, Qənbər Bayramov, Məhəmməd Mehdiyev və başqalarının təkidi ilə Nərimanlı kəndinin bir neçə sakini köçün dayandırılması üçün Moskvaya üz tutdular. İlan yuvası olan Moskvaya onlarca teleqram vurdular. Ancaq nə fayda? Moskvaya gedənlərin qarşısına erməni mafiyası sədd çəkdi. Kimiydi haqqa, ədalətə səs verən, heç kim!

1988-ci ilin şaxtalı qış günlərində Yusif müəllim öz ailə üzvləri ilə birlikdə Göygöl (Xanlar) rayonuna gələrək burada məskunlaşdı. Bir müddət Göygöl rayonundakı 3 saylı orta məktəbdə pedaqoji fəaliyyətini davam etdirdi. Gözlərinin nurunu, qəlbinin hərarətini gənc nəslin təlim-tərbiyəsinə sərf etdi. Onun sinəsini "Maarif əlaçısı" döş nişanı və digər medallar bəzəyirdi. Fikri-zikri hey Göyçədəydi. Göyçədən, ata yurdundan söhbət düşəndə Yusif müəllim qəribsəmiş yurd yerlərindən maraqlı epizodlar danışır, bildirirdi ki, ermənilər tarixən türk xalqlarının düşməni olmuş, xalqımıza qarşı qırğınlar törətmişdilər. Ancaq İrəvan xanlığı dövründə heç vaxt öz məkrli niyyətlərini həyata keçirə bilməmişlər.

Bir neçə il əvvəl Yusif Bayramov dünyasını dəyişmiş, son məqamda dodaqlarından Göyçənin adı eşidilmiş, ölüm yastığının altında əmanət kimi qoyub getdiyi, mürəkkəbi qurumamış bir şeir parçası oğlanları Asim, Rizvan, İqrar, Nuru, qızları Qumru, Məhbubə, sevimli qardaşı Qənbəri dəli-divanə etdi. Bu, onun doğma yurd nisgilindən qopan misraları idi:

*Asta sür, ay Rasim, doyunca baxım,*
*Kövrəlirəm bu dağları görəndə.*
*"Çalmalı" gözümün önünə gəlir,*
*Qoşqarın başında qarı görəndə.*

* * *

*Vətən deyə alışıram oduma,*
*İllər keçir, yetişən yox dadıma.*
*"Dərə yurd", "Sarı yer" düşür yadıma,*
*Xoşbulaqda yaylaqları görəndə.*

Biz Yusif müəllimin oğlu, tanınmış alim, AMEA-nın müxbir üzvü, tibb elmləri doktoru, professor Nuru Bayramovla söhbət edərkən o, bir müddət heykəltək yerində donub qaldı. Handan-hana özünə gəlib ürək ağrısı ilə danışmağa başladı:

—Ruhu şad olsun, dünyasını dəyişən, 90 il öncə bir qış günündə dünyaya göz açan sevimli atamın əziz xatirəsi qəlbimdə əbədi yaşayacaq. Vaxtsız-vədəsiz itkilərin qəlbəzici xiffəti bir başqa sınaqdı... Yəqin ki, təsəvvür edə bilərsiniz ki, mənim üçün fani dünyadan köçən atam haqqında danışmaq nə qədər çətindir. Həm səbirli olmalısan, həm də özünü ələ almalısan.

Nə qədər ki, yaşayıram, ata deyiləndə qürbətdə fəryad qoparan Göyçəni, düşünəcək, Göyçə deyəndə qaçqın kimi dünyasını dəyişən atam Yusifi düşünəcəyəm!

2000-ci ildə "Şərq-Qərb" nəşriyyatında Yusif Bayramovun "Çalmalı dağ zirvəsidi Göyçənin" adlı şeirlər kitabı nəşr olunmuşdur. Poetik ilhamla yazılmış şeirləri oxuduqca, həsrətlər alovlanır, tüstülər ərşə çıxır. Şeirlər öz mayasını, dadını-duzunu Yusif müəllimin söz-sənət çeşməsindən alıbdır. Onları oxuduqca xəyal insanı lap uzaqlara - qürbətdə hay-haray çəkən Göyçəyə, Aşıq Ələsgər, Aşıq Alı, Növrəs İman, Xəstə Bayraməli, şair Bəhmənin saz tutub, söz dediyi qədim Oğuz ellərinə aparıb çıxarır.

**Qədir ASLAN,**
**"Respublika".**

# Sabirabad: İdmançıların qələbəsi sevindiricidir

Ölkəmizdə bütün sahələrə olduğu kimi, idmana, bədən tərbiyəsinin inkişafına diqqət ön plandadır. Bu diqqətin nəticəsidir ki, idmançılarımız dünya miqyaslı mötəbər yarışlarda uğurlu göstəricilər qazanır, ölkəyə medallar gətirir, Azərbaycan bayrağını planetin müxtəlif ünvanlarında dalğalandırır, himnimizi səsləndirirlər. Sovet dönəmində yalnız paytaxtda və respublikanın iri şəhərlərində müxtəlif idman zalları, idman qurğuları yerləşdirilirdi. Sanki bədən tərbiyəsinə qayğı ancaq iri yaşayış yerlərinə məxsus olmalı idi. Müstəqillik dövründə isə belə deyil. Dövlət başçımız cənab İlham Əliyevin qayğı və diqqəti sayəsində indi respublikanın müxtəlif ünvanlarında, regionlarda da idmanın kütləviliyi təmin olunur. Son illərdə ayrı-ayrı rayonlarda tikilib istifadəyə verilən Olimpiya İdman Kompleksləri deyilənlərə əyani misaldır. Regionun Mərkəzi Aran hissəsində yerləşən Şirvan şəhərində, Sabirabad və Kürdəmir rayonlarında Olimpiya İdman Kompleksi səmərəli fəaliyyət göstərir. Adıçəkilən idman ocaqlarından birində - Sabirabad Olimpiya İdman Kompleksində olduq. OİK-in direktoru **Oqtay Mehdiyevlə** söhbət zamanı son illər idmanda əldə olunmuş uğurlar, sözün əsl mənasında, adamda qürur hissi oyadır. Oqtay müəllim deyir:

- Sabirabad Olimpiya İdman Kompleksində boks, sərbəst güləş, mini-futbol, üzgüçülük, trenajor, stolüstü tennis, karate idman bölmələri fəaliyyət göstərir. Olimpiya idman növlərinə daxil olan sərbəst güləş və boks idman növlərinin məşqləri pulsuz keçirilir. Diqqət və qayğının nəticəsidir ki, bu iki idman növü son vaxtlar xeyli inkişaf etmişdir. Hər iki idman növündə məşq edən gənclərimiz respublika yarışlarında nailiyyətlər qazanırlar. Kompleksdə təkcə keçən il yaddaqalan xeyli idman tədbirlərimiz olub. Belə ki, ilin əvvəlindən başlayaraq, sərbəst güləş və mini-futbol yarışları keçirmişik.

Bundan əlavə, sərbəst və yunan-Roma güləşi üzrə, habelə voleybol, stolüstü tennis və digər idman yarışlarımızda onlarla gənc idmançı öz qüvvələrini sınamışlar. Respublika Gənclər və İdman Nazirliyinin, rayon Gənclər və İdman İdarəsinin tədbirlər planına əsasən keçirilən zona yarışları, rayon birincilikləri idmanın inkişafına güclü təkan vermişdir.




Hazırda Kompleksdə 300 nəfərdən artıq yeniyetmə və gənc idmanın müxtəlif növləri üzrə məşqlərə davam edirlər. Keçən il respublika əhəmiyyətli yarışlar keçirmişik. Ötən il yüksək göstəricilər əldə edən idmançılarımızın adını çəkmək istəyirəm. Hər şeydən əvvəl onu deyim ki, keçən il kompleksdə Azərbaycan Milli Xalq Oyunları üzrə kənd idmançılarının 28-ci final yarışları keçirildi. Yarışlarda 18 rayondan gəlmiş 250-dən çox idmançı iştirak etdi. Sərbəst və yunan-Roma güləşi üzrə zona yarışlarının da ünvanı bizim idman müəssisəsi oldu. Bu yarışlarda 19 idmançı öz qüvvəsini sınayırdı. Ümidverici yeniyetmə idmançı Varis Mehdizadənin göstəriciləri sevindiricidir. Varis idmanın sərbəst güləş növü ilə məşğul olur. Varis Macarıstanda keçirilən yeniyetmələrin Avropa birinciliyində 75 kiloqram çəki dərəcəsində 3-cü yer tutdu. İranda dünya kuboku uğrunda keçirilən yarışlarda da o fəxri kürsünün 3-cü pilləsinə qalxdı. Allahverdi Pənahov qaydasız döyüş üzrə Azərbaycan birinciliyində 1-ci yerə, boks üzrə Səməd Həsənzadə Bakı şəhərində keçirilən yarışlarda 3-cü yerə layiq görüldü. Bunlar keçən il idmançılarımızın əldə etdiyi uğurların bir hissəsidir.



Biz Oqtay müəllimlə bu gözəl idman ocağının qorunub saxlanılması yollarından söhbət açırıq. Aydın olur ki, kompleksdə 21 nəfər işçi çalışır. İdman ocağında təmizliyin, səliqə-sahmanın, avadanlıqlarla rəftarın gözlənilməsi kollektiv üzvləri arasında əsas vəzifə hesab olunur.

Sabirabad Olimpiya İdman Kompleksi uğurlu yoldadır. Əldə olunan yüksək göstəricilər, habelə OİK-də yaradılan gözəl şərait Respublika Gənclər və İdman Nazirliyinin diqqətindən yayınmamışdır.

Oqtay müəllim deyir:

-Respublika Gənclər və İdman naziri Azad Rəhimov, Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov daim fəaliyyətimizlə maraqlanır, bu və ya digər problem yarananda köməkliklərini əsirgəmirlər. Bəli, rayon gəncləri bu idman ocağına həvəslə müraciət edir, bu və ya digər idman növləri ilə məşğul olmağa xüsusi həvəs göstərirlər.

**Tofiq HÜSEYN,**
**"Respublika".**

# Ünvanlı Dövlət Sosial Yardımının alınması üçün elektron müraciət proseduru sadələşdirilir

Ünvanlı Dövlət Sosial Yardımının alınması üçün elektron qaydada müraciət prosedurunun sadələşdirilməsi, aztəminatlı ailələrin sosial yardım proqramına daha rahat və asan müraciət imkanlarına şərait yaradılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ardıcıl addımlar atılır. Belə ki, torpağa mülkiyyət hüququna dair çıxarışı olmayan şəxslər də bu gündən etibarən ünvanlı Dövlət Sosial Yardımın (ÜDSY) alınması üçün müraciət edə bilərlər. ÜDSY üçün müraciət zamanı elektron sistem Dövlət Aktı üzrə sığortaedənin uçot nömrəsinə (SUN) dair informasiya sistemindən avtomatik olaraq torpağın mülkiyyətçisi və payçıları haqqında məlumatı əldə edəcək.

Ünvanlı dövlət sosial yardımının alınması üçün müraciət prosedurunun sadələşdirilməsi işləri qarşıdakı dövrdə də davam etdiriləcək.

Qeyd edək ki, indiyədək torpağa dair çıxarışı olmadığına görə, xüsusən regionlarda ayrı-ayrı aztəminatlı ailələr ÜDSY üçün müraciət edə bilmir və nəticədə sosial yardım proqramından kənarda qalırdılar.

**Nazirliyin İctimaiyyətlə Əlaqələr şöbəsi.**

# ELMİ-TƏDQİQAT VƏ TƏŞKİLATİ İŞLƏRİN SƏVİYYƏSİ YÜKSƏLİR

**Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclasında AMEA-nın Gəncə Bölməsinin 2018-ci ildə həyata keçirilmiş işləri və qarşıda duran vəzifələri müzakirə olunmuşdur. AMEA-nın prezidenti, akademik Akif Əlizadənin sədrliyi ilə keçirilən yığıncaqda Bölmənin hesabat ilindəki elmi və elmi-təşkilati fəaliyyəti ətraflı təhlil edilmiş, cari ildə qarşıda duran vəzifələr müzakirə olunmuşdur.**

Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin elmi müəssisələrin qarşısında qoyduğu vəzifələrdən danışmış, hesabat ilində Bölmədə yerinə yetirilən elmi-təşkilati işlər haqqında ətraflı məlumat vermişdir. Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə, ölkədə dilçiliyin inkişafı, daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı, habelə Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsinə dair Dövlət proqramlarında qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi məqsədilə aparılan elmi-tədqiqat işləri səmərəli nəticələrindən bəhs edilmişdir.

Bölmənin statistik göstəriciləri haqqında məlumat verən akademik bildirmişdir ki, elmi müəssisələrdə 6 problemi əhatə edən 23 mövzuda 38 mərhələdə 27 iş üzrə tədqiqatlar aparılmış, institutlarda cəmi 157 kitab, monoqrafiya, məqalə və tezislər nəşr olunmuşdur. Nüfuzlu xarici nəşrlərdə 53 məqalə, 21 tezis, həmçinin 2 kitab və monoqrafiya dərc olunmuş, yüksək elmi istinad dərəcəli jurnallarda 38 məqalə işıq üzü görmüşdür.

Hazırda Bölmənin elmi müəssisələrində elmlər doktorluğu hazırlığı üzrə doktoranturada 2, fəlsəfə doktorluğu hazırlığı üzrə doktoranturada 10, dissertanturada isə 3 nəfər təhsil alır. Ötən il fəlsəfə doktorluğu üzrə 4, elmlər doktorluğu üzrə 2 dissertasiya işi müdafiə olunmuşdur.

Gəncə Bölməsində Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə Dövlət Universiteti və Azərbaycan Texnologiya Universitetinin baza kafedraları yaradılmış, gənc elmi kadrların hazırlanması məqsədilə elmi əsərlərin, məqalələrin və monoqrafiyaların nəşri, müştərək elmi-tədqiqat işlərinin, akademik və informasiya mübadilələrinin aparılması istiqamətində birgə işlər həyata keçirilmişdir. Elm ocaqları ilə istehsal müəssisələrinin əlaqəsinin möhkəmləndirilməsinə xüsusi diqqət göstərilmiş, belə qarşılıqlı əməkdaşlıq səmərəli nəticələr vermişdir. Bölmənin Beynəlxalq əlaqələri də uğurla davam etdirilmişdir. Türkiyənin TÜBİTAK ali elmi qurumu, İtaliyanın Aralıq dənizi hövzəsi və Yaxın Şərq Tədqiqatlar Mərkəzi və digər xarici qurumlarla birgə fəaliyyət göstərilmişdir.

Siyasi çəkişmələr, məhəlli münaqişələr və təbii fəlakətlər üzündən dəfələrlə yerdəyişməyə məruz qalmış Gəncə şəhərinin çoxminillik tarixinin elmi faktlarla daha da zənginləşməsində belə əməkdaşlıq xüsusilə mühüm rol oynayır. İtalyan arxeoloqlarla birgə Gəncə şəhərinin Yeni Gəncə yaşayış massivində e.ə. III-II minilliklərə aid kurqanlarda arxeoloji qazıntı işləri aparılmışdır. İki kurqanın arxeoloji tədqiqi nəticəsində tunc dövrünə aid 6 adda tarixi məmulatlar əldə edilmişdir. Bunlar sənətkarlığın müxtəlif növlərini əks etdirən nizə və ox ucluqları, kiçik və orta ölçülü küpələr, saxsı qablar, tunc bilərzik və muncuq nümunələridir. Dəvəgözündən (obsidiandan) hazırlanmış ox ucluqlarının erkən tunc dövrünə aid olduğu müəyyən edilmişdir.

Aparılmış tədqiqatların ilkin nəticələrini özündə əks etdirən "Gəncənin qədim memarlıq və sənətkarlıq sahələrinin multidisiplinar əsaslarla tarixi-etnoqrafik tədqiqi" adlı monoqrafiya ingilis dilində Polşada nəşr edilmişdir.

Diyarşünaslıq İnstitutunda "Gəncənin dekorativ-tətbiqi sənət sahələri - dulusçuluq" mövzusu üzrə tədqiqat işləri cari ildə də davam etdirilir. Tədqiqat işində şəhərdə fəaliyyət göstərən muzeylərdə, Məhsəti Gəncəvi Mərkəzində, Səbiskar və İmamzadə qəbiristanlıqlarında, AMEA Milli Azərbaycan Tarixi Muzeyində mühafizə edilən və şəxsi kolleksiyalarda olan ənənəvi sənətkarlıq məmulatları elmi əsaslarla araşdırılmışdır. İlk dəfə olaraq ölkəmizin Qərb bölgəsinin, xüsusən də Gəncənin yerli sənətkarlıq ənənələrinin qədim şəhər mədəniyyətinin təşəkkülü və inkişafında əhəmiyyəti tədqiq edilmiş, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilən "Gəncə şəhərinin ənənəvi sənətkarlıq növlərinin innovativ üsullarla tədqiqinin əhəmiyyəti (Tarixi-etnoqrafik tədqiqat)" adlı monoqrafiya ingilis və italyan dillərində Çexiyada çap edilmişdir.

Gəncədə şəhər mədəniyyəti xüsusiyyətlərinin tarixi inkişafında ənənəvi sənətkarlıq məmulatlarının arxeoloji və etnoqrafik cəhətdən mənbə kimi əhəmiyyəti tədqiq olunmuşdur. Qədim şəhərsalma mədəniyyətinin təşəkkülündə və "Dulusçular", "Əttarlar", "Misgərlər", "Boyaqçılar" məhəllələrinin yaranmasında dulusçuluq, misgərlik, əttarlıq, toxuculuq sənətlərinin tarixi əhəmiyyəti arxeoloji və etnoqrafik tədqiqatlar nəticəsində əldə olunmuş nümunələr əsasında öyrənilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurasının və ilk hökumətinin fəaliyyət göstərdiyi Gəncə şəhəri dövlətçilik tariximizdə də şərəfli yer tutur. Müstəqil Azərbaycan Respublikasını Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisi kimi dəyərləndirmiş ümummilli lider Heydər Əliyev və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Cümhuriyyətin ildönümləri ilə bağlı verdikləri dövlət qərarlarını özündə əks etdirən "Azərbaycan Xalq Cümhuriyyəti haqqında dövlət qərarları" adlı kitab nəşr olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin ilkin paytaxt olaraq seçdiyi Gəncə şəhərində yerləşməsi, möhkəmlənməsi və fəaliyyətindən bəhs edən "Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı və mübariz qərargahı - Gəncə" adlı, arxiv materialları əsasında nəşr edilmiş kitab da ötən ilki işlər sırasındadır.

Azərbaycan Xalq Cümhuriyyətinin üç ay ərzində Gəncədə fəaliyyət göstərdiyi müddətdə verilmiş 210-dan çox qərar və sərəncamları özündə əks etdirən "Azərbaycan Xalq Cümhuriyyətinin Gəncədə qəbul etdiyi hüquqi aktlar və onun tarixinin izahlı xronologiyası" adlı daha bir kitab çap olunmuşdur.

Müsəlman Şərqində və Türk dünyasında yaranmış ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin Gəncə quberniyasından olan görkəmli dövlət xadimlərinin həyat və yaradıcılığından bəhs edən "Azərbaycan Xalq Cümhuriyyətinin Gəncə quberniyasından olan dövlət xadimləri" adlı biblioqrafik monoqrafiya da ötən il oxuculara təqdim edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikası Milli Arxiv İdarəsi Dövlət Arxivindən Cümhuriyyətin Gəncə dövründəki fəaliyyəti ilə əlaqədar materialların surəti də Bölməyə gətirilərək tədqiq edilmiş, sistemləşdirilmiş və nəşr edilmişdir.

Hesabat ilində Nizami Gəncəvi Mərkəzində dahi şairin yaradıcılığında din və irfan mövzusu üzrə geniş elmi-tədqiqat işləri aparılmışdır. Nizami Gəncəvi yaradıcılığında Qurani-Kərimə və Həzrəti Məhəmmədin hədislərinə tez-tez istinad edilir. Onun "Xəmsə"sində Allahın "Təvvab" və "Rəzzaq" adları araşdırılmış və mənaları göstərilmişdir.

Mirzə Şəfi Vazehin ən mühüm əsərlərindən biri olan "Kitabi - türki" ("Türk dili kitabı") Azərbaycan əlifbasına çevrilərək geniş ön sözlə nəşr edilmişdir. Bu kitab M.Ş.Vazehin nəsr yaradıcılığının müstəsna toplusu, eyni zamanda gənclik illərindən ömrünün sonuna qədər pedaqoji fəaliyyətlə məşğul olan mütəfəkkir şairin maarif sahəsindəki düşüncələrinin bir ifadəsidir. Kitab ilk dəfə işıq üzü görüb.

Azərbaycan poeziyasında Gəncə mövzusu, xüsusilə XI əsrdə Qətran Təbrizinin yaşadığı Gəncə dövrü, şəhərin ictimai-siyasi və mədəni mühiti əks olunur. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, Gəncə hələ XI əsrdə paytaxt kimi ictimai-siyasi və mədəni cəhətdən yüksəkdə duran şəhər olmuşdur. Müxtəlif tarixi mənbələrdə bu faktı təsdiqləyən yazılar verilsə də, şəhərin ictimai və elmi yüksəlişində mühüm rolu olan insanların adları çəkilməmişdir. Yalnız həmin dövr hakimiyyətdə olan hökmdarların adları qeyd edilmişdir. Bu tədqiqat işində isə qədim Gəncənin elmi və mədəni həyatında öz fəaliyyəti ilə seçilən bir sıra şəxsiyyətlər haqqında məlumat verilir. Qətran Təbrizinin ustad adlandırdığı Əbül Müəmmər, Əbül Əli adlı böyük alimlərin XI əsrdə Gəncədə yaşaması şəhərin önəmini təsdiqləyir. Tarixi zəngin olan bu şəhərin təbliği cəhətdən həmin tədqiqat işi çox önəmlidir.

Humanitar Tədqiqatlar İnstitutunda Azərbaycan ədəbiyyatı, elmi-fəlsəfi və estetik fikir tarixinin öyrənilməsində müstəsna əhəmiyyət kəsb edən elmi istiqamətlərdən biri də Gəncə ədəbi-mədəni mühitinin tədqiq olunmasıdır.

2018-ci il ərzində XIX əsr Azərbaycan maarifçiliyinin təməlini qoyanlardan biri, Azərbaycan dilində "Kitabi-türki" adlı ilk dərs vəsaitini nəşr etmiş Mirzə Şəfi Vazehin maarifçilik fəaliyyəti öyrənilmişdir. Mövzunun daha dərindən tədqiqi digər mənbələrlə yanaşı, Mirzə Şəfi Vazehin İ.Qriqoryevlə birlikdə hazırladığı və professor Xəlil Yusifli tərəfindən redaktə edilmiş "Kitabi-türki" kitabına istinad edilmişdir. Bu kitabın təhlili göstərir ki, M.Ş.Vazeh Azərbaycan və fars dillərində gözəl əsərlər yaratmaqla bərabər, eyni zamanda mahir folklor bilicisi olmuş, türk xalqlarının tarixini və klassik ədəbiyyatını dərindən əxz etmişdir. Onun hazırladığı bu müntəxəbat gimnaziya tələbələrinə türk xalqlarının mədəniyyətindən müfəssəl məlumat verməyə kifayət edirdi.

Mirzə Şəfi Vazeh irsinin tədqiqinə uyğun olaraq "Divani-hikmət məclisi" adlı kitab nəşrə hazırlanmışdır. Bu kitabda "Divani-hikmət"in ən fəal üzvləri olan Ağa İsmayıl Zəbih, Şeyx İbrahim Qüdsi, Fazil xan Şeyda, Mirzə Mehdi Naci, Molla Abbas Şölə kimi şairlərin həyat və yaradıcılığı öz əksini tapmışdır. Tədqiqat işinin davamı olaraq Xaqani Şirvaninin "Töhfətül-İraqeyn" əsəri Azərbaycan ədəbiyyatında ilk məsnəvi kimi öyrənilməkdədir.

Hesabat ili ərzində Xaqani Şirvaninin "Töhfətül-İraqeyn" poemasında süjetdənkənar müqəddimə və haşiyələr tədqiq edilmiş, Xaqaninin dini, elmi-fəlsəfi və ictimai-siyasi baxışları öyrənilmiş, şairin şəxsi həyatı və müasirləri haqqında qiymətli elmi məlumatlar əldə edilmişdir.

"Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanına uyğun olaraq Azərbaycanın Qərb qrupu dialekt və şivələrinin öyrənilməsi sahəsində tədqiqat işləri uğurla həyata keçirilir.

Xalqımızın milli-mənəvi sərvəti olan və onun tarixi köklərini, folklorunu, etnoqrafiyası və etnopsixologiyasını özündə əks etdirən Azərbaycan dilinin öyrənilməsində, inkişafında dialektlərin və şivələrin çox böyük rolu və əhəmiyyəti vardır. Bunların içərisində Azərbaycanın Qərb qrupu dialekt və şivələri zənginliyi ilə seçilir.

Bölmənin Humanitar Tədqiqatlar İnstitutu Nəsimi adına Dilçilik İnstitutu ilə birgə Qərb qrupu dialekt və şivələrinin tədqiqi işini davam etdirir. Azərbaycanın Qərb qrupu dialekt və şivələrinin tərkib hissəsi olan Gəncə dialektinə aid sözlər toplanmış və sistemləşdirilmiş leksikası, fonetik xüsusiyyətləri, Gəncə dialektində olan saitlər və onların növləri tədqiq edilmişdir.

Akademik Fuad Əliyev Aqrar Problemlər İnstitutunda həyata keçirilmiş işlər barədə də ətraflı məlumat vermişdir. Şəmkir su hövzəsinin mikrobioloji və sanitar-hidrobioloji vəziyyəti tədqiq edilmiş, su anbarının doqquz nöqtəsində müşahidələr aparılmış, daxil olan suyun çayda, su anbarında və turbinlərdən çıxan sahələrdə fiziki-kimyəvi və mikrobioloji xüsusiyyətləri araşdırılmışdır. Su anbarında saprofit bakteriyaların həm kəmiyyətcə artması, həm də keyfiyyətcə dəyişməsi müşahidə edilmişdir. Müəyyən zaman və mühit daxilində suyun və onun dib çöküntülərinin mikrobioloji rejiminin - saprofitlərin miqdarı və keyfiyyəti, bakteriyaların fizioloji qrupları müəyyən edilmiş, azot birləşmələrinin yaranmasında azot mənimsəyən bakteriyaların rolunu aydınlaşdırmaq üçün suda həmin orqanizmlərin miqdarı öyrənilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət planı" haqqındakı Sərəncamı əsasında, Nəbatat Bağı əməkdaşlarının apardıqları elmi araşdırmalar nəticəsində Qərb bölgəsində yayılan mürəkkəbçiçəklilərin dekorativ xüsusiyyətləri, şibyələrin səmərəli istifadəsi və onların indiqatorluq xüsusiyyətləri tədqiq edilmişdir. Bitki genofondunun qorunması məqsədilə Qərb bölgəsində nəsli tükənməkdə olan bitkilərin tədqiq olunması istiqamətində işlər aparılmışdır. İlk dəfə olaraq bölgənin xüsusi mühafizə edilən təbiət ərazilərində - Göygöl Milli Parkında, Eldar şamı və Korçay Dövlət Təbiət Qoruqlarında nadir bitki növlərinin özünübərpa xüsusiyyətlərinin tədqiqinə başlanılmışdır. Respublikanın "Qırmızı Kitabı"na daxil edilmiş bu bitki növlərinin genofondunun qorunması məqsədilə təcrübə sahələrində nümunələr əkilərək, yerli şəraitdə çoxalma xüsusiyyətləri öyrənilmişdir.

Məruzəçi Qərb bölgəsinin boyaq bitkiləri və aqrosənaye tullantılarından boyaların alınması, onların fiziki-kimyəvi parametrləri və tətbiq sahələrinin araşdırılması ilə bağlı Bölmənin Bioresurslar İnstitutunda aparılan işləri və ekoloji təmiz bitki örtüyündən istifadə etməklə ekstraktların və piqmentlərin alınmasının səmərəli texnoloji üsullarla tədqiq olunduğunu diqqətə çatdırmışdır. Bölmənin Ekologiya və Təbii Ehtiyatlar İnstitutunda isə Naftalan nefti və tullantıların konserogen birləşmələrdən təmizlənməsi üçün yerli xammal əsasında adsorbentlərin hazırlanması və ölkənin Qərb regionunun sənaye tullantılarının pasportlaşdırılması və təkrar emalı texnologiyası tədqiq edilmiş, onilliklər ərzində milyon tonlarla filiz və qeyri-filiz yataqlarının istismarı zamanı toplanmış tullantılar pasportlaşdırılmış, onların fraksiya, kimyəvi, mineraloji tərkibləri, fiziki-mexaniki xassələri öyrənilərək tətbiq sahələri müəyyənləşdirilmişdir.

Məlumdur ki, respublikamız üçün vacib problem olan məişət tullantılarının təxminən 50 faizini plastik məişət tullantıları təşkil edir. Onların təkrar emala cəlb olunması elmi və praktiki maraq doğurur ki, bu məqsədlə poliolefinlər, onların istismardan sonra toplanmış tullantıları, təbii süxurlar və onların tullantıları əsasında doldurulmuş sistemlər araşdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elan etdiyi elmi-tədqiqat proqramları üzrə əsas qrant müsabiqəsinin qalibi olmuş "Alüminium zəyinin alunitin tullantısı olan kasıb alunitdən yeni texnoloji üsulla alınmasının işlənməsi" mövzusu üzrə tədqiqatlar davam etdirilmişdir.

AMEA-nın Kataliz və Qeyri-üzvi Kimya İnstitutu ilə birgə yeni liqand və kompleks birləşmələr sintez olunmuş, onların strukturları və fiziki-kimyəvi xassələri tədqiq edilmişdir. Aşqarlar Kimyası İnstitutu ilə birgə çoxfunksiyalı alkilfenolyat tipli aşqarlar sintez olunmuş və onların əsasında yaradılmış yeni sürtkü kompozisiyalarının biozədələnməyə qarşı xassələri öyrənilmişdir.

İclasın gedişində məruzə ətrafında müzakirələr aparılmış, suallar cavablandırılmışdır. AMEA-nın elmi bölmələrinin akademik-katiblərinin, görkəmli alimlərin çoxsaylı fikirləri dinlənilmiş, əldə olunmuş nailiyyətlərlə yanaşı, gələcək elmi fəaliyyət istiqamətlərinə dair təkliflər səsləndirilmişdir. AMEA-nın Gəncə bölməsinin 2018-ci ildəki fəaliyyətinə dair hesabatı qəbul edilmiş, yekun qərar layihəsi ilə bağlı təklifləri irəli sürülmüşdür.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə çıxış edərək ölkə başçısının diqqət və qayğısı ilə alimlərin gərgin və səmərəli elmi araşdırmalarının nəticələrinin tətbiqinin ölkəmizin gələcək inkişaf dinamikasını sürətləndirdiyini qeyd etmiş, Bölmədə aparılan elmi-tədqiqat işlərinin keyfiyyətinin daha da yüksəldilməsi üçün tövsiyələr vermiş, daxili imkanlar hesabına kiçik heyətlə həyata keçirilən böyük işləri xüsusi vurğulamışdır.

**Vaqif TANRİVERDİYEV,**
**AMEA-nın Gəncə Bölməsi.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi xalq yaradıcılığı, mədəni marşrutların inkişafı və marketinq xidmətinin aparılması işlərinin satınalması ilə əlaqədar AÇIQ TENDER ELAN EDİR:

Tender 4 (dörd) lot üzrə keçirilir:

Lot 1 - Mədəni marşrutların yaradılması, marketinqi və təbliğat xidmətlərinin aparılması işləri

Lot 2 - Beynəlxalq sərgilərdə iştirakla bağlı stendlərin icarəsi və qurulması işləri

Lot 3 - I Respublika Sənətkarlıq Festivalının və Respublika Ənənəvi Folklor Festivalının keçirilməsi işləri

Lot 4 - Respublika Xalq Teatrları Festivalının və Beynəlxalq Aşıqlar Festivalının keçirilməsi işləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu AZ1000, Bakı şəhəri, Hökümət Evi, Ü.Hacıbəyli küçəsi, 84 ünvanından (Əlaqələndirici şəxs: Həsənov Seymur, telefon 012 498 19 94) ala bilərlər.

İştirak haqqı:
Lot 1 - 130 manat
Lot 2 - 100 manat
Lot 3 - 120 manat
Lot 4 - 100 manat
Hesab: AZ78CTRE00000000000002178501
VÖEN: 1700015381
Bank: Dövlət Xəzinədarlığı Agentliyi
Kodu : 210005
VÖEN: 1401555071
M/H: AZ41NABZ01360100000000003944
S.W.İ.F.T: CTREAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. İddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 05.03.2019-cu il saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 14.03.2019-cu il saat 17:00-a qədər, AZ1000, Bakı şəhəri, Hökümət Evi, Ü.Hacıbəyli küçəsi, 84 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 15.03.2019-cu il saat 14:00 tarixində AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TENDER KOMİSSİYASI
Email: seymur.hasanovs@gmail.com

---

TƏKRAR

"Bakı Metropoliteni" QSC balansında olan kondisionerlərə və kompressorla işləyən soyutma-isitmə sistemlərinə texniki xidmət və təmir üzrə servis xidmətinin satınalınması üzrə
AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəflili küçəsi 16-dən, (Əlaqələndirici şəxs: İlqar Qasımov telefon: 490-00-91) ala bilərlər.

LOT-1. "Bakı Metropoliteni" QSC-nin balansında olan kondisionerlərə və kompressorla işləyən soyutma-isitmə sistemlərinə texniki xidmət və təmir üzrə servis xidmətinin satınalınması

İştirak haqqı - 300 manat
Hesab:AZ98AZRT38050019440010268002
VÖEN 1402871431
Bank: AZƏR-TüRK BANK ASC (Mərkəz filialı)
Kodu: 501361
VÖEN:9900006111
M/H: AZ02NABZ01350100000000022944
S.W.İ.F.T:AZRTAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
-tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 22 fevral 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 04 mart 2019-cu il saat 17:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 16, ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 05 mart 2019-cu il saat 15:00-Bakı şəhəri, M.Rəfili küçəsi 16., ünvanında "Bakı Metropoliteni" QSC-nin Akt zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

"BAKI METROPOLİTENİ" QSC
TENDER KOMİSSİYASI.

---

## Masallı Rayon Mərkəzi Xəstəxanası 2019-cu il üçün tələb olunan inventarın satınalınması, avadanlığın satınalınması ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

**Tender 2 lot üzrə keçirilir:**
**Lot-1.** İnventarın satınalınması
**Lot-2.** Avadanlığın satınalınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində olunmuş tenderin əsas şərtlər toplusunu Masallı Rayon Mərkəzi Xəstəxanasından ala bilərlər.

**İştirak haqları:**
**Lot-1 – 150 manat**
**Lot-2 – 150 manat**
*Təşkilat: Masallı Rayon Mərkəzi Xəstəxanası*
*Masallı Rayon Maliyyə İdarəsi*
*Hesab: AZ44AİİB32051019446100201161*
*VÖEN: 6400037221*
*Bank: "Kapital Bank"ın Masallı filialı*
*Kodu: 200617*
*Müxbir hesabı: AZ37NABZ 01350100000000001944*
*VÖEN: 9900003611*
*S.W.İ.F.T. BİK Aİİ BAZ 2X*

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*—iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*—son bir il ərzində fəaliyyəti vəziyyəti haqqında vergi orqanları tərəfindnə təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*— iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*—müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatı.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 15 mart 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 29 mart 2019-cu il saat 17:00-a qədər, Masallı Rayon Mərkəzi Xəstəxanasına (Z.Əliyeva küçəsi - 6) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təkliflər 01 aprel 2019-cu il saat 11:00-da qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Telefon 25-21-5-33-63**
**Ünvan: Masallı şəhəri, Z.Əliyeva küçəsi-6.**

**Tender Komissiyası.**

---

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

*Mərkəzi ATS sisteminin yenilənməsi üçün avadanlığın, lisenziyanın və xidmətin satınalınması məqsədilə*

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2019-cu il fevralın 8-i saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

---

## "AZERGOLD" QSC

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir: Lot 1 - Çovdar Filiz Emalı sahəsindən hasilat zamanı əmələ gələn təhlükəli tullantılarının daşınması və utilizasiya xidmətlərinin satınalınması**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi peşəkarlığa, təcrübəyə, texniki və maliyyə imkanlarına, işçi qüvvəsinə, idarəetmə səriştəsinə və etibarlığa malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra ödəniş sənədini və tenderdə iştirak etmək üçün rəsmi müraciət ərizəsini "AzerGold" QSC-nin Tender Komissiyasına (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Aygül Tağıyeva, Tel: 012-505-02-02 (dax.1108), I-V günlər, saat 09.00-dan 18.00-dək) təqdim etməklə Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu əldə edə bilərlər.

İştirak haqqı: Lot 1 - 250 manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.

*Hesab:*
*AZ85PAHA38020AZNHC0190068658*
*VÖEN: 1403467421*
*Bank: "PAŞA Bank" ASC*
*Kodu: 505141*
*VÖEN: 1700767721*
*M/H: AZ82NABZ01350100000000071944*
*S.W.İ.F.T: PAHAAZ22*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*
*7. Digər müvafiq sənədlər (Əsas Şərtlər Toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) təqdim olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

